# Azərbaycan–İtaliya əməkdaşlığı: Avropa üçün müstəsna nümunə



**Azərbaycanın ikitərəfli münasibətlərinin dinamik inkişaf etdiyi ölkələr sırasında İtaliya xüsusi yer tutur. Xatırladaq ki, bu münasibətlərin əsası İtaliyanın Azərbaycan Respublikasının müstəqilliyini 1992-ci il yanvarın 1-də tanıması, 1992-ci il mayın 8-də isə iki ölkə arasında diplomatik əlaqələr qurulması ilə yaradılıb. 1997-ci ilin martında İtaliya Cənubi Qafqaz ölkələri arasında ilk dəfə Azərbaycanda öz səfirliyini təsis edib, 2003-cü ilin dekabrında isə Azərbaycanın İtaliyada səfirliyi fəaliyyətə başlayıb.**

Sadaladıqlarımız hazırkı yüksək səviyyəli əməkdaşlıq konturları baxımından, bir növ, müqəddimə sayıla bilər. Bəlkə, müstəqilliyimizin ilk illərində Azərbaycan–İtaliya əməkdaşlığı baxımından indi yaşananları heç ağla gətirmək belə mümkün olmazdı. Ancaq xəyallarımızın gerçəkləşdiyi bir dövrdəyik və Bakı–Roma əlaqələri yüksək dinamizmə, oturuşmuş dönməz struktura malikdir.

(ardı 3-cü səhifədə)

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 194 (30598) 7 sentyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfəri

## Prezident İlham Əliyevin Beynəlxalq Çernobbio Forumunda “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” adlı sessiyada çıxışı



Səhifə ⇨ 2

## İrəvanın silah almasına məhdudiyyət qoyulmalıdır



Səhifə ⇨ 4

## Rusiya İrana qaz nəqlini artıracaq



Səhifə ⇨ 11

## Orkestrdə “yad not”



Səhifə ⇨ 5

## “Faza-3” – Xəzər yataqlarının tammiqyaslı işlənməsinin həlledici mərhələsi



Səhifə ⇨ 7

## Fransada ermənipərəstlərin sayı-hesabı yox imiş



Səhifə ⇨ 4

## Tehranın “qırmızı xətt”i və regional maraqlar



Səhifə ⇨ 5

## Azərbaycanın “təmiz tikinti” üzrə beynəlxalq əməkdaşlığı genişlənir




Səhifə ⇨ 8

## ABŞ Tayvanı qorumağa hazırdır



Səhifə ⇨ 11

# Prezident İlham Əliyevin Beynəlxalq Çernobbio Forumunda “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” adlı sessiyada çıxışı

**Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Dünya, Avropa və İtaliya haqqında bilgilər” mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” adlı sessiyada çıxış edib. Tədbirin iştirakçılarını salamlayan moderator dedi:**

– Hər kəsi bu mötəbər forumda salamlayıram. Prezident Mattarella çıxışında Avropanın rolu və onun qlobal kontekstdə əhəmiyyətindən danışdı. İcazənizlə, bizim hörmətli ilk çıxışçımıza söz verim. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəsinin bu ssenariyə uyğun olaraq hansı mövqedə olduğu barədə danışacaq. Zati-aliləri, söz Sizindir.

Dövlətimizin başçısı sessiyada çıxış etdi.




## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli xanımlar və cənablar!

Əvvəlcə dəvətə görə təşkilatçılara təşəkkürümü bildirmək istəyirəm. Mən ikinci dəfədir ki, Çernobbio Forumunda iştirak edirəm və iki il əvvəl buradakı iştirakımla bağlı xoş təəssüratlarım var. Bir daha dəvətə görə təşəkkür edirəm.

Mən buraya Romadan gəldim. Dünən mənim Prezident Mattarella ilə görüşüm oldu. O, bu səhər burada da gözəl nitqlə çıxış etdi. Dünən, həmçinin mənim Baş nazir Meloni ilə də görüşüm oldu. Görüşlər və müzakirələr zamanı biz bir daha ikitərəfli münasibətlərimizin strateji xarakterini təsdiq etdik. Uzun illər ərzində Azərbaycan və İtaliya strateji tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Müvafiq bəyannamə təqribən 10 il əvvəl qəbul edilib. Bizim əməkdaşlığımız bir çox sahəni əhatə edir. Bizim müntəzəm siyasi təmaslarımız var. Bu, 2020-ci ildən bəri mənim İtaliyaya 3-cü səfərimdir. Prezident Mattarella 2018-ci ildə Azərbaycana səfər etmişdir. Yüksək səviyyəli siyasi təmaslarımız bizim yaxın siyasi tərəfdaş olduğumuzu nümayiş etdirir.

Bizim ticarət əməkdaşlığımız olduqca fəaldır. İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Biz artım üçün potensialı yalnız enerji sektorunda deyil, digər sahələrdə də görürük. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da bizim əməkdaşlığımızın vacib hissəsidir.

Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, Cənub Qaz Dəhlizi adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Qeyd etdiyim kimi, boru kəmərinin başlanğıcı Azərbaycandadır və İtaliyaya qədər uzanır. Ancaq marşrut boyu mövcud olan əlavələr və interkonnektorlar sayəsində bu kəmər geniş Avropa və Avrasiya coğrafiyasını əhatə edir. Burada da artım üçün güclü potensial var. Bu gün biz ən azı üç Avropa ölkəsi ilə qaz təchizatına dair danışıqlar aparırıq.

Bizim ikitərəfli əlaqələrimiz əlbəttə ki, enerji və ticarətlə məhdudlaşmır. Biz hazırda humanitar məsələlər üzərində fəal şəkildə işləyirik. Artıq İtaliya-Azərbaycan Universiteti fəaliyyətə başlayıb və bu, bizim əməkdaşlığımızın şaxələndirilməsinin gözəl nümunəsidir. İtaliyanın beş aparıcı universiteti – Luiss, Sapienza, Bolonya, Milan və Turin universitetləri və onların Azərbaycandan olan tərəf-müqabilləri bu müştərək təsisatı yaradıb. Bu, bizim gələcək əməkdaşlığımız üçün mühüm əhəmiyyət kəsb edəcək. Çünki orada bu gün təhsil alan və gələcəkdə təhsil alacaq tələbələr İtaliya ilə təbii bağlantı rolunda çıxış edəcəklər. Onlar italyan dilində səlis danışacaq, italyan mədəniyyətini və italyan xalqının geniş tarixi irsini daha yaxından tanıyacaqlar.

Mən giriş sözümü ikitərəfli münasibətlərimizin əhəmiyyətinin vurğulanması ilə başladım. Çünki bu onun göstəricisidir ki, münasibətlər qarşılıqlı etimad və hörmət, qarşılıqlı maraqların nəzərə alınması üzərində qurulursa, o zaman tərəqqinin şahidi oluruq. Bu, bir-birindən uzaqda, fərqli qitələrdə yerləşən ölkələr arasında münasibətlərin necə qurulmalı olduğunun nümunəsidir.

Geosiyasi vəziyyətə gəldikdə, - bir halda ki, mənim çıxışım “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” mövzusuna həsr edilib, - əvvəlcə qeyd etmək istəyirəm ki, təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu. Bu, həqiqətən onu nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, burada hüquqi çərçivə ilə yanaşı, həmçinin cəsarət və real güc də var.

Bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimiz 30 il ərzində Ermənistanın işğalı altında idi. Beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələrinə, o cümlədən Ermənistan qoşunlarının bizim torpaqlarımızdan dərhal çıxarılmasını tələb edən və hüquqi öhdəlik yaradan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, işğal davam etmişdir. ATƏT bu məsələ ilə məşğul olacaq xüsusi bir qrup da yaratmışdır və həmin qrup 28 il ərzində sıfır nəticə hasil etmişdir. Bu, onu nümayiş etdirir ki, ədaləti və sülhü təmin etmək üçün təkcə beynəlxalq hüquq kifayət deyil. Masa üzərində digər amillər də olmalıdır.

O zaman işğal altında olan ərazilərimizin böyük hissəsi 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində azad edildi. Lakin məsələ bununla bitmədi, çünki separatçılar Azərbaycanın suverenliyinə xələl gətirməyə davam edirdilər. Bu məsələdə sonuncu nöqtə ötən ilin sentyabrında qoyuldu və Azərbaycanın suverenliyi tam şəkildə bərpa edildi. Münaqişəyə nəhayət son qoyuldu və bu, məhz belə də olmalı idi.

Bu, bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir. Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər. Beləliklə, Sovet İttifaqının süqutundan sonra ilk dəfədir ki, biz Cənubi Qafqazda sülhə nail ola bilərik. Bu, mümkündür - Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması, sərhədin delimitasiyası prosesinin başlanması və hətta kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsinin demarkasiyasının, - halbuki sərhədin uzunluğu 1000 kilometrdən artıqdır, - özü belə düzgün istiqamətdə atılan addımdır.

Beləliklə, biz ümid edirik ki, sülh danışıqlarının başlanmasına dair Azərbaycanın təşəbbüsü sülh sazişinin imzalanması ilə nəticələnəcək. Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaqdır. Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi ola bilər. Baxmayaraq ki, burada işğaldan əziyyət çəkmiş və ərazisinin təqribən 20 faizinin tamamilə dağıdıldığı ölkə məhz Azərbaycandır.

Burada giriş sözümdə qeyd etmək istədiyim sonuncu məqam ondan ibarətdir ki, iki aydan sonra biz ən böyük iqlim konfransına – COP29-a ev sahibliyi edəcəyik. Bununla bağlı qərar ötən ilin dekabrında verildi və bizim hazırlıq üçün bir ildən az vaxtımız var idi. Burada ən vacib məqam ondan ibarətdir ki, bu qərar 200-ə yaxın ölkə arasında konsensusa əsaslanırdı. Biz bunu Azərbaycana olan ehtiramın təzahürü hesab edirik. Tarixdə ilk dəfə COP bizim regionumuzda keçiriləcək.

Biz qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışırıq. Hər kəsə məlumdur ki, iqlim mövzusu ölkələri və xalqları ayıran bir mövzudur. Qarşılıqlı iddialar və ittihamlar var – kim planetimizə xələl gətirməkdə daha çox günahkardır, kim daha çox ödəməlidir və sair. Yəni, beynəlxalq arenada qlobal aktor olmasaq belə, zənnimcə qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür.

Bununla yanaşı, onu da vurğulamaq istərdim ki, bir çox Avropa ölkəsi ilə fəal əməkdaşlığa malik olmağımız, – yeri gəlmişkən Avropa İttifaqının 10 üzvü rəsmi olaraq Azərbaycanın strateji tərəfdaşıdır, – 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına 4 il sədrliyimiz onu nümayiş etdirir ki, biz yaxşı nəticə hasil edə biləcək ölkəyik.

Bunlar mənim giriş sözümdə toxunmaq istədiyim mövzular idi. Bir daha bu auditoriya qarşısında çıxış etmək imkanına görə təşəkkürümü bildirirəm.

**Moderator:** Siz körpülərin qurulması haqqında danışdınız. Rusiya-Ukrayna münaqişəsinə son qoyulması kontekstində müzakirələrdə ölkənizi necə görürsünüz? Hər hansı rolunuz və ya təklifləriniz ola bilərmi? Çünki hazırda bir sıra təkliflər və platformalar mövcuddur.

**Prezident İlham Əliyev:** Nəzəri cəhətdən bu mümkündür. Çünki Rusiya və Ukrayna ilə yanaşı, biz 70 il ərzində Sovet İttifaqının tərkib hissəsi olmuşuq. Bizim xalqlararası və siyasi səviyyədə şaxələndirilmiş münasibətlərimiz var. Bu gün bizim Rusiya və Ukrayna ilə çox yaxşı münasibətlərimiz var. Biz Ukrayna da daxil olmaqla, bütün ölkələrin ərazi bütövlüyünü və suverenliyini güclü şəkildə dəstəkləyirik.

Bununla yanaşı, biz Rusiyaya qarşı sanksiyalar kampaniyasına qoşulmamışıq və belə bir niyyətimiz yoxdur. Beləliklə, biz praqmatik münasibətlərin mövcudluğu fonunda rol oynaya bilərik. Biz heç vaxt bunun təşəbbüskarı olmamışıq, çünki bu işdə yaxından iştirak etmək istəyənlər kifayət qədərdir. Ancaq bizim iştirakımıza zərurət yaranarsa, buna hazırıq.

Burada deyə bilərəm ki, Ukrayna ərazisində qazın tranzitinin davam etdirilməsi ilə bağlı Rusiya, Ukrayna və Avropa təsisatları tərəfindən bizə müraciət edildi. Bir neçə aydır ki, biz ümumi məxrəcə gəlmək üçün böyük səylər göstəririk. Məlumdur ki, bu tranzit dayanarsa, - bu isə dekabr ayına təsadüf edəcək, - bir neçə Avropa İttifaqı ölkəsi təbii qazın fiziki əlçatanlığı ilə bağlı ciddi çətinliklərlə üzləşəcək. Biz, sadəcə, həmin ölkələri və Ukraynanı dəstəkləmək istəyirik. Çünki qazın tranziti dayandığı halda Ukraynanın qazpaylayıcı sistemi tamamilə iflic olacaqdır.

Bizdə müəyyən nikbinlik var. Çünki biz bu kontekstdə hər iki ölkə ilə təmasdayıq və görürük ki, ciddi irəliləyiş üçün zəmin var. Ancaq tərəfimdən təfərrüatların açıqlanması erkən olar. Burada uğura nail ola bilsək, zənnimcə biz bütün regionu viran edən bu müharibəyə son qoymaq üçün əlavə addımlar ata bilərik.

**Moderator:** Yəni, burada müəyyən imkanlar var?

**Prezident İlham Əliyev:** Bəli, hazırda hər iki ölkə Rusiya qazının tranziti müqaviləsinin uzadılması və Azərbaycan qazının Rusiya və Ukrayna ərazisindən Avropaya nəqli ilə bağlı müzakirələri Azərbaycan vasitəsilə aparır.

**Moderator:** Prezident Əliyev, bizimlə birlikdə olduğunuza görə Sizə təşəkkür edirəm. Ancaq Sizə bu sualı mütləq verməliyəm. Bu günlərdə ölkəniz Avropa Şurasının Parlament Assambleyasının bir sıra üzvlərini arzuolunmaz şəxs elan edib. Onların sırasında 5 italyan deputat da var. Bu, körpülərin qurulması, diplomatiyanın əhəmiyyəti və təmasların genişləndirilməsi ruhuna bir qədər ziddir.

**Prezident İlham Əliyev:** Bu suala görə təşəkkür edirəm, çünki bu məsələ ilə bağlı müəyyən anlaşılmazlıq var. Bu suala ətraflı cavab vermək üçün mən 20 il keçmişə qayıtmaq istəyirəm. Azərbaycan o zaman, 2001-ci ildə Avropa Şurasına üzv olub. O zaman parlamentin üzvü idim və Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətinin ilk rəhbəri idim. Yəni, biz 2001-ci ildən etibarən orada idik. Bu illər enişli-yoxuşlu olub, əməkdaşlığımızın fəal mərhələsi də, Avropa Şurasının Parlament Assambleyası tərəfindən tənqid olduğumuz dövrlər də olub. Biz Avropa konvensiyalarının əksəriyyətinə qoşulmuşuq. Biz Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını icra edirik və sair.

Lakin bu ilin yanvar ayında baş vermiş hadisə qırmızı xəttin keçilməsi olub. Bu, nədən baş verdi? Giriş sözümdə qeyd etdiyim kimi, ötən il suverenliyimizi tam şəkildə bərpa etdik. Ötən ilin sentyabrında Azərbaycan torpağında separatçılığın kökü kəsildi. Biz bu gün Ukraynanın etməyə çalışdığından fərqli heç bir şey etməmişik. Ukrayna bu gün Qərbin çox geniş dəstəyinə rəğmən uğursuz şəkildə ərazi bütövlüyünü bərpa etməyə çalışır. Biz özümüz isə heç bir dəstək olmadan ərazi bütövlüyümüzü bərpa etdik.

Bundan sadəcə bir neçə ay sonra Avropa Şurasının Parlament Assambleyası bizim nümayəndə heyətini səsvermə hüququndan məhrum etdi. Bu, suverenliyimizi bərpa etdiyimiz üçün bizə qarşı tətbiq edilən sanksiya idi. Biz öz torpağımızda döyüşdük və hər hansı təcavüzə əl atmadıq.

Buna səs verənlər bizi Avropa Şurasında görmək istəməyənlərdir. Yəni, Azərbaycanın qərarı adekvat idi. Bizim qərarımız buna cavab idi. Onlar tərəfindən qərarın dəyişdiriləcəyi və bizim hüquqlarımızı bərpa etdikləri təqdirdə, gələn ilin yanvar ayında belə bir fürsət olacaqdır, bizim tətbiq etdiyimiz qadağa aradan qaldırılacaq. Mən təəssüf edirəm ki, İtaliya parlamentinin üzvləri bu qərarın lehinə səs veriblər. Səmimi desəm mən 70-dən artıq şəxsdən ibarət bu siyahıda olanların adlarını bilmirəm. Ancaq vəziyyəti yaxşılaşdırmaq üçün imkan var. Bizim nümayəndə heyətimizin fəaliyyəti bərpa edilməlidir və o zaman bu qadağa aradan qaldırılacaq.

**Moderator:** Cavabınıza görə təşəkkür edirəm. İstənilən halda körpülərin qurulması qarşılıqlı tədbirlərin tətbiqindən daha münasib yoldur. Prezident Əliyev, bizimlə birlikdə olduğunuza görə bir daha təşəkkür edirəm.

# Azərbaycan lideri İtaliyanın “Ansaldo Energia” şirkətinin baş icraçı direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Çernobbio şəhərində İtaliyanın “Ansaldo Energia” şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri ilə görüşüb.**

Söhbət zamanı “Ansaldo Energia” şirkətinin hazırda Mingəçevirdə Azərbaycanın ən böyük İstilik Elektrik Stansiyasının yenidən qurulmasında iştirakı məmnunluqla qeyd olundu. Orada 1280 meqavat gücündə yeni tikilən stansiya üçün “Ansaldo Energia” şirkəti tərəfindən istehsal olunan dörd ədəd qaz turbininin Azərbaycana gətirilərək quraşdırılmaqda olduğu vurğulandı. Bildirildi ki, layihənin bu ilin sonunda və ya gələn ilin əvvəlində yekunlaşdırılması nəzərdə tutulur.

Görüşdə “Ansaldo Energia” şirkəti ilə, o cümlədən yaşıl enerji sahəsində fəaliyyətin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, bu şirkət Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsində iştirakda çox maraqlıdır. Bu xüsusda, şirkətin “AzərEnerji” ASC ilə əməkdaşlıq etmək niyyətində olduğu vurğulandı.

Azərbaycanın Energetika Nazirliyi və “AzərEnerji” ASC ilə “Ansaldo Energia” şirkəti arasında əməkdaşlıq haqqında müqavilələrin imzalandığı xatırlandı, birgə fəaliyyətin gələcəkdə də davam etdiriləcəyinə əminlik bildirildi.

# Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri ilə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşüb.**



Xalid bin Əbdüləziz Əl-Falih Səudiyyə Ərəbistanı Krallığının Ali rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanı Krallığının Ali rəhbərliyinə çatdırmağı xahiş etdi.

Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycana səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırladı.

Söhbət zamanı iki ölkə arasında xüsusilə enerji sektorunda əməkdaşlıq məsələləri, o cümlədən Səudiyyə Ərəbistanı Krallığının "Acwa Power" şirkətinin fəaliyyəti müzakirə olundu. Hazırda Azərbaycanda və regionda ən böyük külək enerjisi stansiyasının tikintisinin davam etdirildiyi qeyd olundu, gələn ilin sonunda həmin stansiyanın istifadəyə veriləcəyi bildirildi. "Acwa Power" şirkəti ilə Azərbaycanın Energetika Nazirliyi arasında ölkəmizdə ilk dəfə 200 MVa saxlama güclərinin yaradılması ilə bağlı razılaşmaya uyğun olaraq birgə fəaliyyətin həyata keçirildiyi vurğulandı, bu işlərin COP29-dək başa çatdırılmasının nəzərdə tutulduğu qeyd edildi.

Görüşdə "Acwa Power" şirkətinin Azərbaycandan Avropaya yaşıl enerjinin ixracı sahəsində əməkdaşlıqda maraqlı olduğu diqqətə çatdırıldı. Bununla bağlı Azərbaycanın Energetika Nazirliyi və "Acwa Power"in Xəzər dənizində külək enerjisi layihələri üzərində iş apardıqları qeyd edildi, bunun da növbəti mərhələdə yaşıl enerjinin ixracı üçün mənbə kimi rol oynayacağı vurğulandı.

# Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri başa çatıb



**Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri başa çatıb.**

Milanın Malpensa hava limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliyanın rəsmi şəxsləri yola saldılar.

**AZƏRTAC**

# Azərbaycan–İtaliya əməkdaşlığı: Avropa üçün müstəsna nümunə



**Biz Azərbaycan ilə İtaliya arasında dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir və onlara böyük əhəmiyyət veririk. İkitərəfli əlaqələrimizin gündən-günə inkişafı, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımızın möhkəmlənməsi xüsusi məmnunluq doğurur.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**(əvvəli 1-ci səhifədə)**

Bəli, Azərbaycan–İtaliya dövlətlərarası təmasındakı müsbət mənzərəni xarakterizə edən amillər çoxdur. Ən başlıca amil Azərbaycanın dünya siyasətində yeri və rolu ilə bağlıdır. Qətiyyətlə demək olar ki, ölkəmizin uğurlu enerji siyasəti, ümumən beynəlxalq siyasətdəki prinsipiallığa söykənmiş rasionallıq və balanslılığı ölkəmizin qlobal aktora çevrilməsində mühüm halqadır.

Azərbaycan–İtaliya əməkdaşlığı bu halqanın Avropa seqmentinin aktivliyi baxımından nümunədir. Hesab edirik ki, məhz bu nümunəvilik hər iki ölkə üçün son dərəcə müstəsna dəyərdir. Sevindirici haldır ki, Prezident İlham Əliyevin İtaliyaya sayca üçüncü olan səfəri həmin dəyərin həm vurğulanması, onun yeni və daha dolğun səhnələrinin yaşanması ilə əlamətdar oldu.

Balanslılıqdan söz düşmüşkən, dövlətimizin başçısı bu il Böyük Britaniyaya, Almaniyaya və "köhnə qitə"nin digər paytaxtlarına, həmçinin Mərkəzi Asiya, yaxın Şərq ölkələrinə də səfərlər gerçəkləşdirdi. Bu intensiv qrafik və istiqamət müxtəlifliyi də dövlətimizin balanslı xarici siyasət kursunun keyfiyyət trayektoriyasından xəbər verir. Mövcud məqam Azərbaycanın Qərblə Şərq arasındakı körpü rolunu gücləndirir, ölkəmizə inamı və etimadı daha da möhkəmləndirir. Nəzərə alaq ki, böyük siyasətdə etimad və inam son dərəcə vacibdir. Bu gün rəsmi Roma ilə münasibətlərin yüksəklik fazası ölkələrimizin bir-birilərinə olan qarşılıqlı etimad və inamının təntənəsidir.

Ondan başlayaq ki, 1997-ci il sentyabrın 25-28-də ulu öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin inkişafına xüsusi təkan verib. Sonrakı dövrdə İtaliyanın rəsmi şəxsləri Azərbaycana, ölkəmizin rəsmi şəxsləri isə İtaliyaya çoxsaylı səfərlər ediblər. Bu səfərlər çərçivəsində dost ölkələr arasında ikitərəfli əlaqələrin tənzimlənməsinə, əməkdaşlığın inkişaf etdirilməsinə dair çoxsaylı sənədlər imzalanıb.

Göründüyü kimi, Azərbaycan–İtaliya əlaqələri möhkəm təməl üzərində qurulub. İki ölkənin münasibətləri ötən dövr ərzində uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib. Şübhəsiz ki, bu dövlətlər arasında ali və yüksək səviyyəli səfərlər də əməkdaşlığın möhkəmlənməsində önəmli rol oynayıb.

Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri də bu baxımdan mühüm önəm daşıyıb. Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşündə də bu səfərin əhəmiyyəti yüksək dəyərləndirilib, iki ölkə arasında əlaqələrin gündən-günə inkişafının, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığın möhkəmlənməsinin xüsusi məmnunluq doğurduğu diqqətə çatdırılıb. Dövlətimizin başçısının İtaliyaya bu səfərinin çox səmərəli olduğu qeyd edilərək, Prezident İlham Əliyevlə İtaliya–Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyində olan məsələlərə dair ətraflı müzakirələr aparıldığı vurğulanıb, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirildiyi bildirilib. Eyni zamanda, ölkələrimiz arasında ikitərəfli iqtisadi-ticari əlaqələrin, xüsusilə sənaye, energetika sahələrində əməkdaşlığın genişləndirilməsi, humanitar, mədəni istiqamətlərdə əlaqələrin inkişafı barədə ətraflı fikir mübadiləsi aparılıb. Humanitar-mədəni əlaqələrin inkişafında ADA Universiteti ilə İtaliya universitetləri arasında İtaliya-Azərbaycan Universiteti layihəsinin önəmi xüsusi qeyd olunub.

## "Qoca qitə" ilə əlaqələr gəncləşir

Prezident İlham Əliyevin bundan əvvəl Avropanın digər ölkələrinə səfərləri Azərbaycanın "qoca qitə" ilə gəncləşən əlaqələrini yeni müstəviyə qaldırıb. Ölkəmiz Avropa dövlətlərinin enerji təchizatına töhfəsini bu səfərlərdən sonra artırmaq üçün imkanlarını səfərbər edib. İtaliya isə bu prosesdə ölkəmizin Avropada istinad məkanı, ötürücü coğrafiyadır.

Bu gün Azərbaycan regionun lider dövləti, əsas söz sahibi kimi böyük bir tarixi vəzifəni – Şərqlə Qərbi, Şimalla Cənubu siyasi-iqtisadi, logistik və humanitar sahələrdə yaxınlaşdırmaq, qlobal əməkdaşlığı hamı üçün faydalı məcraya yönləndirmək missiyasını üzərinə götürüb. Bunu dövlət başçımızın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün işgüzar səfərdə keçirdiyi görüşlər də bir daha təsdiq edib.

Prezident İlham Əliyevin bu səfəri çərçivəsində qarşı tərəflərin müraciətlərinə əsasən Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden, İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd, Macarıstanın Baş naziri Viktor Orban, Litva Respublikasının Prezidenti Gitanas Nauseda, Çex Respublikasının Baş naziri Petr Fiala, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə də görüşüb.

Azərbaycanın İtaliya ilə əməkdaşlığı isə qarşılıqlı etimad və maraqlar əsasında inkişaf edir. Bu, bir-birindən uzaqda, fərqli qitələrdə yerləşən ölkələr arasında münasibətlərin necə qurulmalı olduğunun nümunəsi kimi diqqət çəkir. Belə bir əməkdaşlığın təməlində isə təbii ki, Azərbaycanın dünya siyasətində tutduğu mövqe, eləcə də ölkəmizin qlobal siyasətdə aktora çevrilməsi amili həlledici rol oynayır.

Azərbaycan rəhbərinin dost ölkədə keçirdiyi görüş və müzakirələrdə təkcə ikitərəfli münasibətlər deyil, Avropa məkanı ilə də münasibətlərin yeni mərhələdə davamı əksini tapdı. Dövlətimizin başçısı Beynəlxalq Çernobbio Forumundakı çıxışında dİtaliya ilə münasibətlərin ümumavropa önəmi daşıdığını vurğuladı: "Uzun illər ərzində Azərbaycan və İtaliya strateji tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Müvafiq bəyannamə, təqribən, 10 il əvvəl qəbul edilib. Bizim əməkdaşlığımız bir çox sahəni əhatə edir. Bizim müntəzəm siyasi təmaslarımız var. Bu, 2020-ci ildən bəri mənim İtaliyaya 3-cü səfərimdir. Prezident Matarella 2018-ci ildə Azərbaycana səfər etmişdir. Yüksək səviyyəli siyasi təmaslarımız bizim yaxın siyasi tərəfdaş olduğumuzu nümayiş etdirir".

## Azərbaycanın Avropanın qaz təchizatında çəkisi artır

Dövlətimizin başçısının İtaliyaya işgüzar səfəri çərçivəsində keçirdiyi görüşlərdə enerji sahəsində ikitərəfli əməkdaşlığın getdikcə möhkəmlənməsi xüsusi məmnunluqla ifadə edilib. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə, onun hazırda İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində roluna toxunulub, TAP-ın ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparılıb. Dost ölkənin "Eni S.P.A" şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi yüksək dəyərləndirilib və bu qurumların üçüncü ölkələrdə birgə layihələrdə iştirakı məsələsi barədə fikirlər səsləndirilib.

Prezident İlham Əliyev sentyabrın 5-də Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşündə də Azərbaycan Dövlət Neft Şirkəti ilə "Eni S.P.A" şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunub, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı fikirlərini diqqətə çatdırıb.

Bu məqamda xatırladaq ki, iki ölkənin enerji sahəsində əməkdaşlığında ötən illər ərzində mühüm uğurlar əldə edilib. Belə ki, 1995-cu il noyabrın 10-da Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın ENİ/Agip şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1996-cu ilin iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Şah Dəniz" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1998-ci ilin iyunun 2-də isə Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər imzalanıb.

İtaliya Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşına çevrilib. Cənub Qaz Dəhlizi (CQD) və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəməri (TAP) ikitərəfli enerji əməkdaşlığını və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən vacib amil kimi dost ölkə tərəfindən yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı İtaliyaya işgüzar səfəri çərçivəsində Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyadakı çıxışında CQD-nin fəaliyyətini yüksək qiymətləndirərək bu qaz dəhlizinin hazırda 10 ölkənin enerji təhlükəsizliyini gerçəkləşdirdiyini bildirib. Ölkəmizin rəhbəri daha sonra Azərbaycandan İtaliyaya uzanan 3500 kilometrlik CQD-nin bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin etdiyini vurğulayaraq deyib: "Bu gün 10 ölkə Azərbaycandan qaz alır və bu ölkələrin 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı Ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaşı adlandırır".

Qeyd edək ki, CQD Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniyadan keçərək Azərbaycan qazını İtaliyanın Brindisi sənaye limanındakı son təyinat nöqtəsinə çatdırır. CQD-nin son hissəsi – TAP Azərbaycandan ilk dəfə olaraq təbii qazı İtaliyaya daşıyır.

Bu məqamda dövlətimizin başçısının "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumundakı çıxışında sözügedən qaz dəhlizi haqqında fikirlərini də xatırlatmaq istərdik: "Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, Cənub Qaz Dəhlizi adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Qeyd etdiyim kimi, boru kəmərinin başlanğıcı Azərbaycandadır və İtaliyaya qədər uzanır. Ancaq marşrut boyu mövcud olan əlavələr və interkonnektorlar sayəsində bu kəmər geniş Avropa və Avrasiya coğrafiyasını əhatə edir. Burada da artım üçün güclü potensial var. Bu gün biz ən azı üç Avropa ölkəsi ilə qaz təchizatına dair danışıqlar aparırıq".

Yeri gəlmişkən, elektrik enerjisi sahəsində də İtaliya şirkətləri əsas tərəfdaşlarımızdır. Məsələn, məşhur "Ansaldo" şirkəti hazırda Mingəçevirdə tikilən 1300 meqavata yaxın gücü olan elektrik stansiyası üçün turbinlərin təchizatçısıdır. İtaliyanın digər şirkətləri, məsələn, "Maire Tecnimont" böyük sənaye sahəsinin podratçısı idi. Həmçinin Azərbaycanın neft emalı zavodunun təmirində ölkəmizə kömək edir. Beləliklə, bu, həqiqətən çox möhkəm və ildən-ilə böyüyən çoxşaxəli təməldir.

## İtaliya–Azərbaycan işgüzar müzakirələri

Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri çərçivəsində İtaliyanın Müəssisələr və "Made in Italy" Nazirliyi, Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin və İtaliya Sənaye Konfederasiyasının birgə təşkilatçılığı ilə İtaliya – Azərbaycan dəyirmi masası keçirilib. Hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, enerji sektoru, kimya sənayesi, avtomobil istehsalı, mühəndislik, əczaçılıq, kənd təsərrüfatı, metallurgiya, tikinti, qida və digər sahələrdə fəaliyyət göstərən 40-a yaxın sahibkarın iştirak etdiyi dəyirmi masada ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığı qeyd edilib, İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğu vurğulanıb. Eyni zamanda, Azərbaycanın İtaliya ilə çoxşaxəli iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyi və bunun nəticəsi olaraq ölkə iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən işğaldan azad olunan ərazilərdə dost ölkənin çoxsaylı şirkətlərinin uğurla fəaliyyət göstərdiyi bildirilib.

Dəyirmi masada çıxış edən hər iki ölkənin nümayəndələri çıxışlarında Azərbaycanın İtaliya ilə strateji enerji tərəfdaşlığı və əlaqələrin qeyri-neft sahəsində inkişafı imkanları haqqında danışaraq tərəflərin ixrac və investisiya potensialı haqqında məlumat verib, ortaq faydalı fəaliyyət istiqamətləri, eləcə də perspektivli layihələrin önəmini diqqətə çatdırıblar. Bütün bunlarla yanaşı, iştirakçılar sənaye, bərpaolunan enerji, infrastruktur, nəqliyyat, tekstil, kimya, əczaçılıq və digər prioritet sektorlarda əməkdaşlığın gücləndirilməsi barədə təkliflər səsləndiriblər.

Qeyd edək ki, dövlət başçımızın dost ölkəyə işgüzar səfəri çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvləri ilə İtaliya Ticarət Agentliyi, aqrar və qida texnologiyaları sahəsində ixtisaslaşan "Annatura" şirkəti, "Scorpio Group" və İtaliyanın "Coldiretti" kənd təsərrüfatı təşkilatının nümayəndələri arasında görüşlər təşkil olunub, qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.

*

Sonda qeyd edək ki, İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etməsinin əsas səbəblərindən biri ölkəmizin hər zaman verdiyi vədə sadiq qalması, razılaşdırılan məsələlərin icrasının diqqətdə saxlamasıdır.

Prezident İlham Əliyev tərəfindən ardıcıl həyata keçirilən demokratik proseslər və sosial-iqtisadi islahatlarla yanaşı, uğurlu xarici siyasət dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini respublikamıza yönəldib. Şübhəsiz ki, bütün bunlar beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın daha da güclənməsinə, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayının artmasına, Azərbaycanla Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalanmasına öz müsbət təsirini göstərib.

Hazırda Azərbaycan regionun yeganə ölkəsidir ki, mürəkkəb geosiyasi şəraitdə müstəqil uğurlu xarici siyasət yürüdərək milli maraqlara söykənən prinsiplərlə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Bunun nəticəsidir ki, dövlətimizin gerçəkləşdirdiyi enerji layihələri, regional inteqrasiyanı sürətləndirən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır.

**Vaqif BİNYATOĞLU**
**XQ**

# Fransada ermənipərəstlərin sayı-hesabı yox imiş

## *Yaxud Makronun yeni baş nazir təyinatına sözardı*

**Fransa ermənipərəstliyini durmadan gücləndirir. Ölkənin yeni baş nazirinin Mişel Barnye olması bunun təsdiqidir. Söhbət 2021-ci ildə Azərbaycan ərazilərinə qeyri-qanuni səfər edən Barnyedən gedir.**





Bəli, yeni baş nazir o zaman Fransada prezidentliyə namizəd Valeri Pekreslə birgə Qarabağdakı separatçı rejimin təmsilçilərini ziyarət edib. Böyük ehtimalla onlara ruh yüksəkliyi aşılayıb, yəni sabun köpüyü ritorikasına üstünlük verib. Ən əsası isə Barnye səfər əsnasında anti-Azərbaycan fikirlər səsləndirib və Pekreslə birgə ölkəsinin Azərbaycandakı səfirini geri çağırmasına dair bəyanat yayıb. Habelə, bununla kifayətlənməyərək, Bakıya qarşı sanksiyaların tətbiqi istiqamətində çağırışa da imza atıb.

Əslində, Emmanuel Makron kimi ermənipərəst prezidentə malik Fransanın Barnye kimi ermənipərəst baş nazirinin olması o qədər də təəccüblü deyil. Əlbəttə, ikincinin ölkəsində yüksək posta təyinat alması Parisin Bakıya qarşı hərəkətlərindəki rəng çalarlarını bir qədər də tündləşdirəcək. Ancaq, necə deyərlər, islanmışın yağışdan qorxusu yoxdur. Bu mənada, Azərbaycan da heç nədən və heç kimdən çəkinmir.

Bəli, Fransa istər rəsmi, istərsə də qeyri-rəsmi formada ölkəmizə qarşı ən ağlasığmaz vasitələri işə salaraq mübarizə aparır. Qərəz dolu qətnamələr, bəyanatlar və sair anti-Azərbaycan mahiyyət daşıyan lakmus kağızları günümüzün acı reallıqları, ümumən Fransa adına son dərəcə böyük utanc gətirən səhnələrdir. Şübhəsiz ki, zaman keçdikdən sonra ölkədə Bakıya münasibət baxımından bu gün yaşananlara görə utananlar tapılacaq.

Yeri gəlmişkən, bu məqamı vurğulayaq ki, o boyda Fransa, demokratiyanın beşiyi, ənənələrə malik məmləkət otuz illik müstəqilliyi olan gənc dövlətə münasibətdə aşkar həyasızlıq yolu tutur, bütün etiket qaydalarını, mənəvi dəyərləri, beynəlxalq hüquq normalarını saymır. O da şübhəsizdir ki, vaxt gələcək ümumən Makronun prezidentliyi dövrü Fransanın qara ləkəsi kimi tarixə düşəcək. Elə Barnye kimi ermənipərəstin baş nazirliyi də həmçinin.

Beləliklə, Ermənistanın Fransadakı səfiri Asmik Tolmacyan bildirib ki, Ermənistan M.Barnyenin ölkəyə iki səfərini böyük qədirbilənliklə xatırlayır. Onun sözlərinə görə, həmin səfərlərdən biri 1995-ci il noyabrın 7-də gerçəkləşib. O vaxt Barnye Avropa məsələləri üzrə nümayəndə statusunda İrəvanda olubmuş və Fransanın Ermənistandakı səfirliyinin açılışına qatılıb.

Barnyenin Ermənistana ikinci səfəri isə vurğuladığımız kimi, 2021-ci ildə, daha dəqiq desək, həmin ilin dekabrında reallaşıb. Sən demə, o, həmin vaxt müharibədən əziyyət çəkənlərlə həmrəylik nümayiş etdirmək istəyibmiş. Elə bu məqsədlə də Qarabağa yollanıbmış və hərəkətinin beynəlxalq hüquqa tüpürmək olduğunun fərqinə varmayıbmış.

Əslində, Fransada hər şeyi çox yaxşı bilirlər. Yəqin, Barnyeni baş nazir edənlər bunun nə demək olduğunun fərqindədirlər. Artıq tam əminliklə demək olar ki, Fransanın ən yüksək rütbəli bir məmuru ölkəmizə ayaq basmaq qadağası ilə üzləşəcək. Paris, necə deyərlər, Azərbaycanla körpüləri yandırmağın bu fazasını özü istədi. Amma onu da nəzərə alaq ki, Barnyenin təyinatı, eyni zamanda, Makronun fransız xalqı ilə də körpülərini yandırması anlamına gələn hadisədir. Ən mühüm məqam da elə budur.

Qeyd edək ki, Fransadakı hazırkı situasiyada M.Barnyenin ciddi hökumət formalaşdırması çətin görünür. Yəni, onun yeni hökumətinin bu il iyunun 30-da və iyulun 7-də keçirilmiş seçkilərdən sonra heç bir partiyanın mütləq çoxluğa malik olmadığı parlamentin üzvləri arasında etimad qazana biləcəcəyi mümkünsüz təsir bağışlayır. Elə buna görədir ki, Makron iki aydır baş nazir təyin edə bilmirdi. Nəhayət, o, Barnyeni tapıb ki, belə bir mənfi reputasiyalı şəxsin yüksək vəzifəyə gətirilməsi ölkənin siyasi dairələrində də süngü ilə qarşılanıb.

Məsələn, Fransanın Milli Birlik hərəkatının lideri Jordan Bardella bildirib ki, rəhbərlik etdiyi qurum yeni baş nazirin ümumi çıxışlarını, büdcə ilə bağlı təkliflərini qiymətləndirib və onların realizə imkanlarına baxaraq qərar verəcək: "Biz tələb edəcəyik ki, alıcılıq qabiliyyətinin yüksəlməsi, təhlükəsizlik və imiqrasiya kimi fransız xalqının qarşısında dayanan başlıca tələblər yerinə yetirilsin. Bunun baş verməyəcəyi təqdirdə, etirazçı siyasi mühit formalaşdırmaq haqqımızı özümüzdə saxlayırıq".

Fransız solçular da Barnyenin təyinatından narazıdırlar. İfrat solçuların lideri Jan Lyuk Melenşon deyib ki, prezident Barnyeni baş nazir təyin etməklə, ölkədə qanunverici hakimiyyət orqanlarına keçirilmiş seçkilərin nəticələrini rəsmi şəkildə təkzib etdi. Onun sözlərinə görə, baş nazir seçkidə birincilik qazanmış "Yeni xalq cəbhəsi"ndən olmadığı üçün seçkilərin nəticələri xalqdan oğurlandı.

"Hakimiyyətin seçkidəki məğlubiyyətindən 52 gün sonra Makron özünü avtokrat saydığını göstərdi", – deyən "Yenilməz Fransa" sol radikal partiyasının deputatı Matilda Pano vurğulayıb ki, prezident seçki məntəqələrinə gələn insanların seçiminə hörmətsiz yanaşdığını göstərib. Pano buna görə də insanları küçələrə çıxmağa və Barnyenin təyinatına etiraz bildirməyə çağırıb. Eyni fikri "Yaşıllar"ın lideri Marina Tondelye də "X" sosial şəbəkəsində yazıb.

Göründüyü kimi, M.Barnyenin təyinatına qarşı hiddət var. Bəli, belə təəssürat yaranır ki, Fransada ermənipərəstlərin sayı-hesabı yoxmuş. Hesab edirik ki, ölkənin hazırkı siyasi sisteminin ən böyük bəlası da elə budur. Bəla isə bəla gətirir. Qarşıda Fransada 2025-ci ilin büdcə müzakirələri var. Ölkənin hazırda düşdüyü bu bataqlıqda müzakirələrin Barnyenin formalaşdıracağı hökuməti məhvə sürükləyəcəyi şübhəsizdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvanın silah almasına məhdudiyyət qoyulmalıdır

**İkinci Dünya müharibəsindən formalaşmış beynəlxalq münasibətlər sisteminə nəzər yetirdikdə, başqa ölkələrin torpaqlarını işğal edən, təcavüzkarlıqla məşğul olan çox az sayda dövlətin olduğunu görmək mümkündür. Onlardan biri də Ermənistandır.**



Təxminən, 70 il biz bu respublika ilə eyni dövlətin – SSRİ-nin tərkibində yaşasaq da və həmin illərdə ölkəmizdə yaşayan ermənilərə güldən ağır söz deyən olmasa da, onlar Sovet İttifaqının dağılması ilə nəticələnən etnik separatizmə başladılar. Bu separatçı əməllər az sonra qanlı müharibəyə çevrildi. Müharibənin gedişi zamanı azərbaycanlılara qarşı soyqırımları törədildi, yaşayış məntəqələrimiz işğal olunaraq xarabazara çevrildi. Azərbaycan öz gücü hesabına işğal faktını aradan qaldırsa da, hələ də Ermənistanın mövqeyi üzündən sülh sazişinin imzalanması mümkün olmur. Buna paralel olaraq qarşı tərəf silahlanma həyata keçirir. Fransa başda olmaqla Qərb ölkələri Ermənistanı silahlandırırlar.

Azərbaycan isə tarixində heç vaxt işğalçılıq, təcavüzkarlıq və ya buna bənzər əməllərlə məşğul olmayıb. Ölkəmiz həmişə beynəlxalq hüququn norma və prinsiplərindən çıxış edərək, qonşu dövlətlərlə münasibətdə də bu meyarı əsas tutub. Amma bunu Ermənistan barədə demək mümkün deyil. Ermənistan bu gün də revanşist yanaşmadan əl çəkməyib. Demək olar ki, hər ötən gün İrəvandan yeni revanşist ruhlu bəyanatlar səslənir. Ölkənin parlamentindəki "Şərəfim var" fraksiyasının katibi Tiqran Abramyan bildirib ki, Azərbaycanın Ermənistanın silah və ordusunun tədarükünə məhdudiyyətlər tətbiq edilməsinin zəruriliyi barədə son yanaşması İrəvan qarşısında qoyulan digər ilkin şərt kimi qiymətləndirilməlidir. O qeyd edib ki, Ermənistanın alternativinin olmaması və hansısa hökumətin dövründə müdafiə məsələlərinə, o cümlədən silah və hərbi texnikanın alınmasına böyük diqqət yetirməli olması heç müzakirə mövzusu da deyil: "Azərbaycanın aqressiv mövqeyini (?) və yaranan nifrəti (?) nəzərə alsaq, Ermənistanın addımlarının beynəlxalq hüquq və qavrayış baxımından başadüşülən olması da şübhə doğurmur. Bakıda bunu hamı başa düşür, amma Hayastanı maksimum dərəcədə sıxıb ayağa qalxmaq şansından məhrum etmək üçün Ermənistanın indiki hakimiyyətinə qarşı dəfələrlə tətbiq olunan qamçı siyasətindən (?) istifadə etməyə çalışırlar".

Mövzu ilə bağlı "XQ"-yə açıqlama verən **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin rəhbəri Fərid Şəfiyev** bildirdi ki, Ermənistan hazırda Qərbə üz tutub. Təəssüf ki, Qərbdə də onları dəstəkləyənlər çoxdur: "Onlar özlərindən sülhpərvər, demokratik ölkə imici yaratmaq istəyirlər. Fakt isə bundan ibarətdir ki, Ermənistan 30 il işğalçılıqla məşğul olub. Bununla bağlı dünya təcrübəsindən gətirilən misal tamamilə doğrudur. İkinci Dünya müharibəsindən sonra Almaniyaya silahlı qüvvələrlə bağlı belə bir məhdudiyyət tətbiq edilmişdi. Həmçinin, Yaponiya ilə də bağlı oxşar təcrübə mövcuddur. Bu günədək də Yaponiyanın silahlı qüvvələrinin inkişafına məhdudiyyət var. Yəni, bu, İkinci Dünya müharibəsinin təcrübəsidir. Təəssüf ki, Qərbdə Ermənistanın təcavüzkar olduğunu, Azərbaycan torpaqlarını 30



il ərzində işğal altında saxladığını görmürlər. Ölkəmizin Fransa və Hindistanın Ermənistanı silahlandırması ilə bağlı haqlı narazılığı var. Nikol Paşinyan isə deyir ki, bu, bizim hüququmuzdur və guya, müdafiə məqsədi ilə edilir".

F.Şəfiyev Ermənistan cəmiyyətində gedən müzakirələrdən də söz açdı: "Ermənistan cəmiyyətində gedən müzakirələr zamanı deyirlər ki, biz İkinci Qarabağ müharibəsini uduzduq, eybi yoxdur. Amma 10-15 il sonra bu məsələyə qayıdacağıq. Onlar məsələni gündəmdən də çıxarmaq istəmirlər. Yəni, əgər münaqişə həll olunubsa və iddialar yoxdursa, Minsk qrupu nəyə lazımdır? Mən hələ konstitusiyanı bir kənara qoyuram. Hər halda deyirlər ki, 2027-ci ildə əsas qanunu dəyişdirəcəklər. Halbuki, 2027-ci il çox gecdir. Hətta diplomatik cəbhədə də biz görürük ki, orda-burda "Dağlıq Qarabağ məsələsini" gündəmdə saxlamaq cəhdləri var. Ona görə də istər Paşinyan, istərsə də ondan sonra hakimiyyətə gələn şəxs deyə bilər ki, biz silah tətbiq etməklə, güc yolu ilə bu torpaqları qaytarmalıyıq. Yəni, belə bir ehtimal var".

Erməni ekspertlərin bəzilərinin yazdıqları məqalələrdə məsələyə sonrakı illərdə qayıdacaqlarına dair fikirlərin əksini tapdığını qeyd edən mərkəz rəhbəri bu baxımdan Azərbaycanın çox haqlı narazılığının olduğunu vurğuladı: "Amma açıq demək lazımdır və görünən odur ki, Qərbin İrəvana bu dəstəyi fonunda Ermənistana qarşı hər hansı məhdudiyyət tətbiq edilməyəcək. Əgər Ermənistana qarşı hüquqi cəhətdən çərçivə müəyyənləşmirsə və məhdudiyyət tətbiq olunmursa, buna cavab olaraq, Azərbaycan özünün silahlı qüvvələrini həmişə Ermənistan ordusundan qat-qat üstün saxlamalıdır. Tarixi keçmişi nəzərə alaraq, deməliyik ki, bu da bizim hüququmuzdur".

Məsələni hərbi-siyasi nöqteyi-nəzərdən şərh edən **sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** isə bildirdi ki, Azərbaycan sülh sazişi ilə bağlı 5 prinsipdən ibarət təkliflər irəli sürsə də qarşı tərəfin mövqeyi üzündən hələ də sazişin imzalanması mümkün olmayıb. Onun sözlərinə görə, rəsmi İrəvanın yanaşması "bir addım irəli, iki addım geri" prinsipinə əsaslanır. Qarşı tərəf yeni havadarlar axtarışına çıxır, xaincəsinə siyasət apararaq regionu yeni münaqişə ocağına çevirmək istiqamətində səylər göstərir: "Bu addım regionun təhlükəsizliyinə çox böyük zərbə vurmağa hesablanıb. Onların hərəkəti yaşadıqları regiona arxadan zərbə vurmağa bənzəyir".



Ehtiyatda olan polkovnik açıqlamasının davamında dedi: "Ermənistan elə bir ölkədir onun, ümumiyyətlə, ordusu olmalı deyil. Onun silah-sursat almasına məhdudiyyətlər, qadağalar qoyulmalıdır. Əvvəla, ona görə ki, Ermənistana qonşu heç bir ölkənin əsas qanununda, yəni, konstitusiyasında onlara qarşı ərazi iddiası yoxdur. İrəvanın isə dörd bir tərəfə ərazi iddiası var. Onların ərazi iddiası təkcə Azərbaycan və Türkiyə ilə məhdudlaşmır. Hayların Gürcüstan və hətta, İrana qarşı da ərazi iddiaları mövcuddur. Yəni, bu ölkə öz konstitusiyasına qonşu ölkələrə ərazi iddiasının olması ilə bağlı konkret müddəalar salıb. Bu da region üçün təhlükəli haldır. İrəvan regionda xarici havadarların istəyi ilə çirkin oyunların baş verməsinə şərait yaradır. Prinsip etibarilə heç bir qonşu ölkənin Ermənistana hücum etmək niyyəti yoxdur. Amma qeyd etdiyimiz kimi, bunu Ermənistan barədə demək olmaz. Ermənistan müstəqil siyasət yürütməyən, bu və ya digər qüvvələrin sifarişlərini yerinə yetirən ölkədir. Ona görə də mən düşünürəm ki, onun silahlandırılması, bütövlükdə, region üçün təhlükəlidir".

Ş.Ramaldanov qeyd etdi ki, Ermənistanla bağlı beynəlxalq zəmanət mexanizmi olmalıdır: "Dünyada belə praktika mövcud olub. Ümumiyyətlə, Ermənistan silahlandırılmayan və ordusu olmayan ölkə kimi mövcud olmalıdır. Yaxud da silah alışı ilə bağlı beynəlxalq kvotada Ermənistanın payı çox aşağı endirilməlidir. Bu kvota ağır artilleriya, tank, raket, yaylım vasitələri və sair silahları nəzərdə tutur. Silahların növləri və adları, təyinatı ilə bağlı müəyyən məhdudiyyətlər var. BMT-də tərk-silah və silahlanmanın məhdudlaşdırılması məsələləri ilə məşğul olan xüsusi qurum var. Onlar bu kvotaya əməl olunmasını yoxlamaq üçün vaxtaşırı Azərbaycan və Ermənistana səfərlər edirlər. Sadəcə, Ermənistan 30 il ərzində beynəlxalq kvotada nəzərdə tutulandan artıq bütün silahları çox asanlıqla Azərbaycanın işğal olunmuş 20 faiz ərazisində cəmləşdirmişdi. Çünki ora heç bir beynəlxalq qurum tərəfindən nəzarət olunmayan, necə deyərlər, "boz zona" idi".

Onu da qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin də digər dövlətlər kimi xaricdən silah almaq hüququna malik olduğunu bildirib. Halbuki, işğalçının yenidən silahlanması bütün region üçün təhlükə yaradır. Ermənistanla bağlı bu gün də işğalçı ölkə sözünü işlətməyimiz üçün kifayət qədər əsaslar var. Qonşu ölkə 30 ilə yaxın Qarabağın böyük hissəsini və ölkəmizin bir sıra digər rayonlarını işğal altında saxlayıb. Uzun müddət ermənilər manipulyasiya edirdilər ki, guya, Qarabağda yalnız hansısa "müdafiə ordusu" adlandırdıqları silahlılar var və onların Ermənistanla heç bir əlaqəsi yoxdur. Amma Qarabağda ləğv edilmiş separatçı rejimin keçmiş rəhbərləri özləri bu yaxınlarda etiraf etdilər ki, həmin "müdafiə ordusu" həmişə Ermənistan müdafiə nazirliyinə tabe olub. Yəni, Ermənistan silahlı qüvvələrinin tərkibində fəaliyyət göstərib. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının daha bir bariz nümunəsi 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından sonra erməni silahlı qüvvələrinin bircə atəş belə açılmadan üç rayondan (Ağdam, Kəlbəcər və Laçın) çıxarılması faktıdır. Bu sənədi isə Ermənistanın baş naziri şəxsən imzalayıb. Belə faktlar çoxdur və kimin işğalçı olduğu heç müzakirə mövzusu belə deyil. İşğalçının təkrar silahlanması isə bütün region üçün təhlükə yaradır. Ermənistanın silahlandırılması ilə bağlı məhdudiyyətlərin tətbiqi günün tələbidir.

***Səxavət HƏMİD***
***XQ***

# Tehranın “qırmızı xətt”i və regional maraqlar

## “Rusiyasız dünya”da, görəsən, Tehrana rahatlıq olacaqmı?

**İran rəsmilərinin davamlı şəkildə təkrarladıqları tezislərə nəzərən ölkənin yeni Xarici işlər naziri Abbas Əraqçının da eyni məzmunlu fikir bildirəcəyi gözlənilirdi. Əraqçı vurğuladı ki, ölkəsinin qonşularının ərazi bütövlüklərinə Şimaldan, Cənubdan, Şərqdən və ya Qərbdən hansısa təhdid və ya onların sərhədlərinin dəyişdirilməsi tamamilə qəbuledilməzdir və İran üçün “qırmızı xətdir.” Nazir bunu özünün “X” sosial şəbəkəsindəki mikrobloqunda yazdı. A.Əraqçının başqa nələrdən söz açdığına diqqət yetirəcəyik.**



Əvvəla, ümumi şəkildə rəsmi Tehranın “qırmızı xətt” məntiqindən söz açaq. Ötən ilin ilk yarısından başlayaraq regional siyasi gündəmə daxil olmuş bu deyimin Azərbaycanla münasibətlərin kəskinlik fazasının mövcudluğundan xəbərdarıq. Sonradan “qırmızı xətt” ritorikasının nisbətən yumşaldığından da.

Ancaq, tədricən, Bakı–Tehran münasibətlərinin kəskinlik qütbü zəiflədi. Bu il mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyevlə İranın sabiq dövlət başçısı Seyid İbrahim Rəisi arasındakı sərhəd görüşü isə nəinki həmin qütbün aktivlik fazasını heçə endirdi, eyni zamanda, iki ölkə arasında indiyədək görünməmiş səmimiyyətin ifadəsi ilə tarixə çevrildi.

Demək olarmı ki, sözügedən görüşdən qayıdan Prezident İbrahim Rəisinin helikopter qəzasında həyatını itirməsindən sonra Tehran–Bakı münasibətlərindəki müsbət dinamika heçə endi? Düşünmək olarmı ki, Ermənistanın Naxçıvana yol məsələsində ölkəmizin şərtlərini qəbul etməyəcəyi təqdirdə, həmin yolun İran ərazisindən keçməsi ilə bağlı razılıq əhəmiyyətini itirib? O yol ki, ona ABŞ tərəfindən ciddi əks reaksiyalar var idi və rəsmi Bakı belə hallara qarşı kəskin mövqeyini bildirmiş, qətiyyət nümayiş etdirmişdi.

Hər halda, tələsməyək və “qırmızı xətt” məsələsindəki açıqlamalara diqqət yetirək. Açıqlamalardan söz düşmüşkən, bu günlərdə İranın Xarici işlər nazirinin köməkçisi, Avrasiya məsələləri üzrə baş direktor Müctəba Dəmirçulunun bildirdikləri üzərində dayanaq. Cənab Dəmirçulu Rusiyanın İrandakı səfiri Aleksey Dedovla görüşündə regiondakı sərhədlərin toxunulmazılığı məntiqini qabartmışdı. Yeri gəlmişkən, sözügedən görüşdə başlıca diskussiya mövzusu Cənubi Qafqazdakı vəziyyət olmuş, 3+3” platforması çərçivəsində qarşıdan gələn yüksək səviyyəli təmas müzakirə edilmiş, bu formatın regionda təhlükəsizlik, iqtisadi və nəqliyyat əlaqələrinin açılması nöqteyi-nəzərdən əhəmiyyəti vurğulanmışdı. Həmçinin, M.Dəmirçulu bildirmişdi ki, İran regionda sülh və sabitlikdə maraqlıdır, prosesə dəstək verməyə hazırdır.

Bəli, nazirlə köməkçisinin fikirləri tamamilə üst-üstə düşür. A.Əraqçının sözlərindən gəlinən qənaət budur ki, regional sülh, təhlükəsizlik və sabitlik, sadəcə olaraq, üstünlük deyil, milli təhlükəsizliyin əsasını təşkil edən faktordur. Yəni Şimaldan, Cənubdan, Şərqdən və ya Qərbdən hansısa təhdid meyillərinin yaranması, o cümlədən sərhədlərin dəyişdirilməsi cəhdi ona görə qəbuledilməzdir və Tehran üçün “qırmızı xətdir” ki, bu, həm də İranın milli təhlükəsizliyinə zidd məsələdir. Başlıca sual isə budur: İran nəyi özünə təhdid sayır? Bəlkə Ermənistanın “Dünyanın kəsişməsi” layihəsini dəstəkləyir? Məlumdur ki, sözügedən ideya Azərbaycanın razılığı olmadan mümkünsüzdür. Yoxsa, ölkə Ermənistan ərazisindən keçən ənənəvi yolla kifayətlənmək niyyətindədir? Üstəlik, haqqında bəhs etdiyimiz məsələ var. Söhbət İrəvanın Azərbaycanın Naxçıvana yol xüsusundakı şərtlərini qəbul etməyəcəyi təqdirdə, həmin yolun İrandan keçməsindən gedir.

Əvvəldə rəsmi Tehranın Bakı ilə əldə olunmuş razılığı qüvvədə saxlamaq istəyinin olub-olmadığını sual etdik. Əslində, suallar və aydınlıq gətirilməli olan məqamlar kifayət qədər çoxdur. Bir çox siyasi ekspertlər həmin məqamlar fonunda “Zəngəzur dəhlizi”nə görə İranla Rusiya arasında gərginliyin yaşanacağını proqnozlaşdırırlar. O dəhliz ki, Naxçıvana yolun maneəsizliyi məntiqinə əsaslanır. Ölkəmizin mövqeyi budur ki, həmin yolda heç bir gömrük və sərhəd nəzarəti olmasın. Ermənistan tələbimizi özünün ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığına zidd təmayül olaraq qiymətləndirirsə, maraqlı vəziyyət yaranır.

Belə çıxır ki, İran özünə qarşı kəskin mövqedə dayanan Qərbi dəstəkləyir. Cənab Əraqçının “sərhədlərin dəyişdirilməsinin tamamilə qəbuledilməzliyindən” danışması düşünməyə əsas verir. Ancaq onu da bildirək ki, “Zəngəzur dəhlizi” məntiqi, yəni Naxçıvana yolun “Azərbaycandan Azərbaycana yol” prinsipi, heç bir halda, Ermənistana qarşı ərazi iddiası demək deyil. Bunu ölkəmizin rəhbər şəxsləri dəfələrlə vurğulayıblar. Rəsmi Bakı yolun maneəsizliyini (gömrük və sərhəd yoxlanışından kənar fəaliyyətini), həmçinin mövcud xüsusdakı nəzarət amilini özünün təhlükəsizliyi baxımından vacib sayır.

Yəni Azərbaycan Ermənistanın təhlükəsizlik təminatına etibar etmir və etməməkdə haqlıdır. Çünki yaxın keçmişin acı təcrübəsi var. Axı ötən əsrin 80-cı illərinin sonu – 90-cı illərinin əvvəllərində Bakıdan Naxçıvana və əks istiqamətə gedib-gələn qatarların Meğri rayonu ərazisində erməni millətçiləri tərəfindən daşa basılmasını unuda bilmərik. Bir halda ki, erməni hərbçiləri hazırda qoşunların təmas xəttində atəşkəsi pozur və rəsmi İrəvan durumu hansısa könüllü birləşmənin nümayəndəsinin əməli kimi qələmə verib məsuliyyətdən yayınırsa, deməli, Naxçıvan istiqamətinə nəqliyyat axını ilə bağlı da eyni hal yaşana bilər...

Əlqərəz, Azərbaycan Naxçıvana yolla əlaqədar əlahiddəlik tərəfdarıdır və “Zəngəzur dəhlizi” ideyasını məhz bu səbəbdən irəli sürür. Əlahiddəlik, eyni zamanda, ona görə vacibdir ki, sözügedən yol mühüm qlobal marşrut əhəmiyyəti daşıyır və mövcud istiqamətdə böyük yükdaşımlar, heç bir halda, kiçik, bəsit fikir və düşüncələrin, avantürist baxışların əsirinə çevrilməməlidir. Ermənistan isə nə avantürizmindən əl çəkir, nə də cılız siyasətindən. Ölkə Cənubi Qafqazda sülhə və əmin–amanlığa təhdid yaradan dəst-xəttindən də geri durmur. Heç şübhəsiz, bunu nəinki A.Əraqçı başda olmaqla Tehranın xarici siyasət cameəsi, habelə ölkənin fikir industriyası gözəl bilir. Hə, mövqeyini bunu bilərək ifadə edirsə, o zaman durum başqadır. Başqa, yəni, necə, məsələ barədə yazımızın sonunda söz açacağıq.

Hələlik isə Azərbaycanın otuz ilə yaxın davam etmiş işğal dövrünü xatırlayaq. Ermənistan və havadarları həmin müddətdə təcavüz faktını leqallaşdırmaq, xalqımızı düşdüyü acınacaqlı durumla barışdırmaq yönümlü xətt seçdilər. Görəsən, Ermənistanın istəyi sərhədləri dəyişdirmək deyildimi? Koçaryanlar, sarkisyanlar niyyətlərini açıq bildirmirdilərsə, “Artsax xalqı”nın iradəsi cəfəngiyyatını tirajlayırdılarsa, baş nazir Nikol Paşinyan rol oynamadı – “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirdi. İran rəsmiləri həmin vaxt sərhədlərin dəyişməsinin yolverilməzliyindən söz açdılarmı? İndi isə bu barədə danışırlar. Onların dəyişiklikliyin yolverilməzliyində “qırmızı xətt” məntiqini qabartmaları, hətta, xəbərdarlıq ritorikasına köklənir...

Bir nüansın da üzərində dayanaq. İran sərhədlərin dəyişməsini “qırmızı xətt” kimi gördüyünü açıqlayırsa, nəzərə alaq ki, hazırda bu deyim müəyyən siyasi redaktələrlə təqdim olunur. Yəni, bir il əvvəlki “qırmızı xət”lə, hazırkı “qırmızı xətt” arasında fərq var. İkinci daha diplomatikdir. Çünki zamanında İran rəsmiləri regiondakı başqa dövlətlərin deyil, ancaq Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığını vacib saydıqlarını bildirirdilər. İndi isə belə təəssürat yaranır ki, onlar ümumi yanaşır, tərəf tutmurlar. Halbuki, mahiyyət eynidir. Yəni, cənab Əraqçının regiona təhdid gözləntisi baxımından Şərqi, Qərbi, Şimalı və Cənubu bir-birinə qatmasına, bu təhdidə qarşı müqavimət ruhu aşılamasına ehtiyac yoxdur. O, hətta, kosmik təhlükələrdən də söz açsa, səmimi görünməyəcək. O səbəbdən ki, rəsmi Tehranın bir il əvvəlki mövqeyi xatirimizdədir. İranın vaxtilə Qərb dairələri kimi Azərbaycan torpaqlarının işğalına göz yumduğu da həmçinin.

Bəs, indi Tehran nəyə nail olmaq istəyir? Axı İran rəsmilərinin düşünmələrinə ehtiyac var. Onlar Ermənistan vasitəsilə Qərbin Cənubi Qafqazdakı patronajlığına razıdırlar? Bu gedişat İrana lazımdır? Ölkə rəhbərliyində təmsil olunanlar bir yandan “region region ölkələri üçündür” məntiqini dəstəkləyir, “3+3” platformasına önəm verir, digər tərəfdan fərqli bəyanatlar səsləndirirlər. Görəsən, bilmirlərmi ki, Qərbin “erməni kartı” ilə Cənubi Qafqazda söz sahibinə çevrilməsi, İran üçün də təhlükə yaradacaq? Nəhayət, hansının – əsrlərdir bir coğrafiyada təmsil olunan Rusiyanın, yoxsa bu coğrafiyadan kənar Qərbin təminatı daha etibarlıdır? Əgər Dedov–Dəmirçulu görüşündə Cənubi Qafqazla bağlı bütün tərəflərin maraqlarını nəzərə almaqla, problemlərin həlli, regionda sülhün, sabitliyin bərqərar olması və iqtisadi planların həyata keçirilməsi üçün region ölkələrinin potensialından istifadənin vacibliyi vurğulanmışdısa, üstəlik, bu zaman ərazi bütövlüyünün və suverenliyin toxunulmazlığı amili önə çəkilmişdisə, deməli, rusiyalı səfir İran rəsmisinə başlıca məqamın nədən ibarət olduğunu da çatdırmışdı.

Bəli, nazirlə köməkçisinin səsləndirdiyi fikirlər, demək olar, eynidir. Sülh və sabitlikdə maraqlı olduğunu açıqlayan İran fərqinə varmır ki, Qərbin regionda möhkəmlənməsi nəticəsində beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişməsinin yolverilməzliyi ritorikası mənasız deyimə çevirəcək. Geosiyasi ssenari Rusiyanın bölgədən uzaqlaşdırılmasını hədəf seçirsə, İranda yaxşı bilməlidirlər ki, Moskvasız dünyada Tehrana rahatlıq yoxdur. Bəlkə İran Azərbaycanın, Türkiyənin, Rusiyanın deyil, Ermənistanın etibarına güvənməyi üstün tutur?

Bir daha vurğulayaq ki, yuxarıda səsləndirdiyimiz bir çox suallar, əslində, ritorikdir. Çünki İran xarici siyasət industriyası Qərbin və Ermənistanın gedişlərini anlamayacaq dərəcədə naşı ola bilməz. Tehran siyasilərinin 44 günlük müharibəni də yaddan çıxardıqlarını düşünmürük. O müharibəni ki, Ermənistan hakimiyyəti onun başlanmasına məhz Qərbə arxalanaraq rəvac verdi. Nəticədə savaş İran sərhədlərinə yaxın ərazidə getdi.

Digər tərəfdən, oyun qaydaları var. Müharibədə qalib kimi, məğlubun da hansı tərəf olduğu məlumdur. Eləcə də ikincinin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin vacibliyi də rəsmi Tehran tərəfindən nəzərə alınmalıdır. Bu gün baş nazir Nikol Paşinyan 44 günlük müharibəyə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın Ermənistanın məğlub dövlət statusunu rəsmiləşdirmədiyini iddia edib sərsəmləyirsə, İran belə bir demarşın hansı xarici qüvvələrə arxalanmanın məhsulu kimi meydana çıxdığının fərqinə varmalıdır. Hər halda Nikol və komandasındakılar cəfəng fikirlərini Tehrana arxalanıb tirajlamırlar.

Gələk sonda diqqətə çatdıracağımızı bildirdiyimiz məqama. Ermənistan iqtidarı ölkəsinin avantürist siyasəti baxımından İrana yalnız bir məsələdə arxalana bilər. Əslində, buna “arxalanmaq” demək doğru olmaz. Onların, sadəcə, Tehranın ənənəvi stereotiplərini nəzərə alıb oyun qurmaları mümkündür. Nədir həmin stereotip? Çox da düşünməyə ehtiyac yoxdur. Söhbət Naxçıvana maneəsiz yol, yəni “Zəngəzur dəhlizi” məsələsində İranın türklərin mühasirəsinə düşəcəyi ehkamından gedir. Hesab edirik ki, Tehrandakı ayrı-ayrı siyasilər tərəfindən dilə gətirilmiş bu məsələ arxayik məzmunludur. Əvvəla, dünya indi başqa dünyadır. İkincisi, türk təşəkkülü labüd və qarşısıalınmaz prosesdir. Üçüncüsü, tarixdə ilk dəfə türk və İran faktorunun qarşılıqlı, səmərəli əməkdaşlıq kontekstində birləşməsi yaşana bilər. “Zəngəzur dəhlizi” ideyasının bu baxımdan real təminatları mövcuddur. Deməli, tarixdə yaşananları bir kənara qoyub önə baxmaq zamanıdır. Yaxşı olar ki, İranda məhz bu barədə düşünsünlər. Təkcə düşünməsinlər, eyni zamanda, nəticə də çıxarsınlar. Hələlik gec deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Orkestrdə “yad not”

## Rusiyanın baş diplomatı qəribə açıqlaması ilə diqqət çəkib

**Həftə maraqlı hadisələrlə zəngin oldu. Cənubi Qafqazda maraqları kəsişən "böyük güclər"in təmsilçilərinin bir-birinə zidd açıqlamaları, transmilli layihələrlə bağlı "uzaqmənzilli" bəyanatları hələ də gündəmin əsas mövzuları sırasındadır.**

Azərbaycan ictimaiyyətinin maraq dairəsinə düşən və diqqətini çəkən açıqlamalardan biri də Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) tələbələri qarşısında çıxışı zamanı söylədikləri oldu. Rusiyanın baş diplomatı ölkəsinin dünyadakı mövqeyinə toxunduğu salamlaşma nitqindən sonra tələbələrin suallarına cavab verib. Erməni əsilli tələbələrdən biri Lavrova sual verib. Onun sualı Suriya, Ukrayna və Dağlıq Qarabağ münaqişəsi prizmasından Rusiya–Türkiyə münasibətlərinin hazırkı vəziyyəti ilə bağlı olub. Nazir sualı cavablandırarkən Rusiya və Türkiyə arasında etibarlı tərəfdaşlıq əlaqələri, müxtəlif münaqişələrin həllində birgə fəaliyyətləri barədə ağızdolusu danışıb.

Bu zaman Lavrovun Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması kontekstində dediyi sözlər bizi təəccübləndirdi və hətta, çaşdırdı da: “Ermənistan rəhbərliyinin 2022-ci ilin sonunda "həll etdiyi" Qarabağ problemindən danışırıq. Azərbaycan və Avropa İttifaqının iştirakı ilə 1991-ci ildə imzalanmış sərhədlərinin tanınması haqqında saziş, bu çərçivədə Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində olub...”

Lavrovun bu "siyasi tezisi"nə arayış vermək məcburiyyətindəyik. Bəli, son üç il yarımda Rusiya diplomatları hətta dövlət başçısı bu mövzu ilə bağlı sualı cavablandırarkən şikayətlənirdilər ki, “Qarabağın itirilməsində” İrəvanın özü günahkardır. Çünki rəsmi İrəvan Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyıb. İntəhası, bu kontekstdə Lavrovun indiki bəyanatı bir qədər fərqli mənzərə yaradır. Birincisi, indiyə qədər bir tezis qəti şəkildə ifadə edilməmişdi. Bir çox hallarda ironiya qarışıq istehza ilə dilə gətirilirdi. İkincisi, əgər Ermənistan müharibəni acınacaqlı şəkildə uduzubsa, "Qarabağ münaqişəsi"ni necə və hansı formada “həll edə” bilərdi?

Aşkar görünən odur ki, Lavrovun bu açıqlaması Rusiya–Azərbaycan münasibətlərinin indiki ruhuna və Prezident Putinin mövqeyinə qətiyyən adekvat deyil. Rusiya Prezidenti dəfələrlə Lavrovun son bəyanatına oxşar ruhda öz fikrini ifadə edib. Eyni zamanda, 2023-cü ilin oktyabrında bəyan edib ki, “Azərbaycanın Qarabağda konstitusiya quruluşunu nə vaxt və hansı yolla quracağı an məsələsidir”. Eyni zamanda, Putinin bu ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı bəyanatlarındakı əvvəlki ironik tonlar tamamilə aradan qaldırıldı. Diqqətli izləyicilər gördülər ki, Putin Bakıda “Qarabağ” sözünü bir dəfə də olsun dilə gətirmədi. Çünki, Azərbaycan kimi, Rusiya üçün də “Qarabağ münaqişəsi” keçmişdə qalmışdı. Vladimir Putinin Bakıya səfəri zamanı dediklərindən bəzi sitatları diqqət yetirək: “Rusiya Azərbaycan–Ermənistan münasibətlərinin qarşılıqlı normallaşmasına və tərəflərin əldə etdiyi məlum üçtərəfli razılaşmalar əsasında sülh müqaviləsinin bağlanmasına hər cür töhfə verməkdə davam edəcək... Əlbəttə, siz və mən dünən bu mövzuya toxunmuşuq, bu gün də davam edəcəyik – bu, Cənubi Qafqazdakı vəziyyətin nizamlanmasına aiddir. Mən bilirəm ki, Azərbaycanın niyyəti tam nizamlanma ilə bağlı bütün prosedurları başa çatdırmağa yönəlib, mən bunu yaxşı bilirəm. Gəlin bu haqda danışaq”.



Yeri gəlmişkən, görünür, Putinin “Qarabağ problemi”nə “diqqətsizliyi” hətta Kremlə yaxın media dairələrini ciddi şəkildə narahat edib. İş o yerə çatıb ki, Marqarita Simonyanın rəhbərlik etdiyi "RİA Novosti" Rusiya Prezidentinin sözlərini təhrif edib – yuxarıdakı sitatların sonuncusunu sanki, o, “Qarabağ” sözünü ifadə etmiş kimi göstərib.

Etiraf etməliyik ki, Rusiya ilə Azərbaycan arasında müttəfiqlik əlaqələrinin güclənməsinə baxmayaraq, Rusiyanın baş rus diplomatı həll olunmuş münaqişəyə dövlət başçısından bir qədər fərqli "nəzər yetirir"...

Doğrudur, bir məsələyə insanların fərqli baxışları ola bilər. Problem ondadır ki, Lavrovun bu fərqli fikirlərini ictimailəşdirir. Belə çıxır ki, Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri Qarabağ probleminin həll olunması ilə o qədər barışa bilmir və bu məsələyə yanaşmada dövlət başçısına açıq şəkildə etiraz etmiş kimi görünür.

Lavrovun Qarabağ məsələsində başqa cür düşündüyü təzə xəbər deyil. 2022-ci ildə MDB dövlət başçılarının Astanada keçirilən sammiti zamanı, o, Praqada Azərbaycanın ərazi bütövlüyünü tanıyan Ermənistan rəhbərliyinin “kobud səhvindən” açıq hiddətlə danışıb. Baş diplomatı bir insan kimi başa düşmək olar. Axı, Moskvanın müəyyən qeyd-şərtlərlə ATƏT-in Minsk qrupunun digər həmsədr ölkələri ilə bir ansamblda yer aldığı "münaqişə meneceri" rolunda regionla qarşılıqlı əlaqə qurmaq çox xoşdur.

Nə olursa–olsun, bunlar keçmişdə qalıb və Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri öz Prezidentinin nöqteyi-nəzərindən, zənnimizcə, Rusiya ilə Azərbaycan arasında müttəfiqlik münasibətlərinin ruhuna uyğun mövqe tutmalıdır.

Nəhayət, başqa məsələrlə yanaşı, Lavrovun sözləri tələbələrlə görüşün ruhuna da ziddir. MDBMİ tələbələri, gələcək diplomatlar və siyasətçilər hansı dünyada yaşamalı və işləməli olduqlarını başa düşmək üçün həqiqəti bilməyə borcludurlar. Həqiqət budur ki, Qarabağ problemini yoluna qoyan və Ermənistanı 1991-ci il sərhədlərini tanımağa məcbur edən Azərbaycandır. Bu həqiqəti təhrif etmək tələbələrin diplomatik anlayışının təhrif olunması ilə nəticələnir və bu, artıq Rusiya siyasətinin gələcəyi üçün risklər yarada bilər.

İkinci Qarabağ müharibəsində qazandığımız Zəfər ilə 30 illik işğala yox, 200 illik erməni separatizminə, terroruna böyük zərbə vurduq. Haylar bizə qarşı düşmənçilik siyasətini özlərinin terror təşkilatları, lobbisi, kilsəsi və Ermənistan dövləti vasitəsilə həyata keçirirdi. Azərbaycan dörd il bundan əvvəl bunların uzunmüddətli planlarını alt-üst edərək, özlərinin arasında mübarizənin yaranmasına səbəb oldu. Kiçik əraziyə və əhali sayına malik Ermənistan artıq bilməlidir ki, regionda qalmaq üçün terrordan, separatizmdən, qonşulara qarşı işğalçılıq və başqa güclərin "maşası" olmaq siyasətindən əl çəkməlidir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Prezident İlham Əliyevin səfəri İtaliya mətbuatında

**İtaliyanın aparıcı mətbu orqanları Prezident İlham Əliyevin bu ölkəyə işgüzar səfərini geniş işıqlandırıb.**







"Agenzia Nova", "Giornale Diplomatico", "Agenpress", "Il Sole 24 Ore", "Askanews", "Italpress", "il Giornale", "La Presse", "Agenzia Vista", "Quotidiano Nazionale", "Tutt Oggi", "Borsa Italiana" və digər kütləvi informasiya vasitələrində yayılan məlumatlarda Prezident İlham Əliyevin Romanın "Quirinale" Sarayında İtaliya Prezidenti Sercio Mattarella ilə görüşdüyü bildirilib. Diqqətə çatdırılıb ki, görüşdə iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı və çoxşaxəli əməkdaşlığı ehtiva etdiyi vurğulanıb.

Bildirilir ki, İtaliya Avropada Azərbaycanın əsas ticarət tərəfdaşıdır, iki ölkə arasında enerji sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. TAP layihəsinin Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyində mühüm rol oynadığı qeyd olunur. Humanitar və mədəni əlaqələrin, eyni zamanda, İtaliya -Azərbaycan Universitetinin fəaliyyətinin əhəmiyyəti bildirilib.

Noyabrda Azərbaycanın evsahibliyi edəcəyi COP29-un çox əhəmiyyətli tədbir olduğu və İtaliyanın beynəlxalq tədbirdə yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağı diqqətə çatdırılır.

Məlumatlarda Prezident İlham Əliyevin həmin gün Romanın "Chigi" Sarayında İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüş keçirdiyi bildirilib. Vurğulanıb ki, görüşdə İtaliya–Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyindəki məsələlərə dair ətraflı müzakirələr aparılıb, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib.

Diqqətə çatdırılıb ki, Ciorcia Meloni COP29-un uğurla keçirilməsi üçün İtaliyanın Azərbaycana bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu vurğulayıb.

Yazılarda, həmçinin qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüb, SOCAR ilə "Eni" arasında əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

**XQ**

# "Hüquq və iqlim" konfransı





**Sentyabrın 6-da Bakıda Azərbaycan Hakimlər İttifaqının və Azərbaycan Respublikası Ali Məhkəməsinin birgə təşkilatçılığı ilə "Hüquq və iqlim" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev konfransı açaraq bildirib ki, iqlim dəyişikliyi dünya üçün ciddi bir sınaqdır. Həmin dəyişikliklər insanların hüquqlarına, həyat tərzinə və ümumi rifahına böyük təsir edir. Qeyd edilib ki, Azərbaycan da iqlim dəyişikliyinin qarşısının alınmasında beynəlxalq əməkdaşlıq məsələlərinə ciddi yanaşır. Diqqətə çatdırılıb ki, bugünkü beynəlxalq konfransın da əsas məqsədi Azərbaycanın və dünya ictimaiyyətinin diqqətinin iqlim dəyişikliyi ilə bağlı proseslərə cəlb edilməsi, bu sahədə mövcud beynəlxalq və milli hüquqi tənzimləmə alətləri barədə məlumatlılığın artırılmasından ibarətdir.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxışında qeyd edib ki, hazırda Azərbaycanda yeni iqlim strategiyasının hazırlanması istiqamətində işlər aparılır. Ölkənin iqlim strategiyası həm qlobal öhdəliklərə uyğunlaşmanı, həm də milli prioritetlərin icrasını özündə birləşdirir. Yeni strategiya bütün iqtisadi sektorları əhatə edərək, aşağıkarbonlu inkişafı hədəfləyəcək.

Ali Məhkəmənin sədri İnam Kərimov isə bildirib ki, iqlim dəyişikliyi təkcə ekoloji, sosial-iqtisadi məsələ deyil, həm də hüquqi məsələdir. Bugünkü konfransın da iqlim dəyişikliyi ilə bağlı Azərbaycanın bu sahədə təşəbbüslərinə və dünyada gedən proseslərə hüquq ictimaiyyətinin diqqətini çəkməklə effektiv hüquqi müzakirələrə yol açacağı və bu sahədə görülən işlərə öz töhfəsini verəcəyi xüsusi vurğulanıb.

Sonra çıxış edən Beynəlxalq Hakimlər İttifaqının prezidenti Duro Sessa Bakıda təşkil olunan konfransı yüksək qiymətləndirərək bildirib ki, bu cür tədbirlərin təşkili ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi ilə mübarizə sahəsində konkret addımların atılmasına imkan yaradır.

Türkiyənin Konstitusiya Məhkəməsinin sədr müavini Basri Bağcı çıxışında qeyd edib ki, Türkiyə Konstitusiya Məhkəməsi iqlim və ətraf mühit mövzularında qərarlar qəbul edib. O bildirib ki, noyabr ayında Bakıda COP29-un keçiriləcəyi ərəfədə belə bir konfransın təşkili təqdirəlayiq haldır.

Konfransın davamında mövzu ilə bağlı çıxışlar dinlənilib.

# Azərbaycan rəhbərinin Çernobbioda mesajlarının dünya mediasında əks-sədası






**Aparıcı xarici KİV-lər Azərbaycan Prezidenti İlham Əliyevin "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyadakı çıxışını geniş işıqlandırıb.**

"Reuters" beynəlxalq informasiya agentliyinin "Azərbaycan prezidenti Ukrayna ilə qaz marşrutu üzrə danışıqlara arxayındır" adlı məqaləsində dövlət başçısının Rusiya qazının Ukrayna ərazisindən keçməklə Avropaya tranziti məsələsində Bakının vasitəçiliyi ilə bağlı bəyanatlarından bəhs olunur.

"Bloomberg"in "Azərbaycan daha üç Avropa ölkəsinə qaz təchizatı ilə bağlı danışıqlar aparır" adlı məqaləsində qeyd olunur ki, Azərbaycan artıq səkkiz Avropa ölkəsini qazla təmin edir və Avropa İttifaqı ilə 2027-ci ilə qədər ixracı iki dəfə artırmaq barədə razılaşmaya malikdir.

"İlham Əliyev təsdiqlədi ki, Moskva və Kiyev ona dekabrda əsas razılaşmanın müddətinin başa çatmasından sonra Ukrayna ərazisindən Avropaya qaz tranzitinin asanlaşdırılması xahişi ilə müraciət edib. Çıxış yollarından biri Rusiya təchizatını başqa ölkədən, məsələn, Azərbaycandan və ya Türkiyədən qaz alışı ilə əvəz etmək ola bilər. Bu, Ukraynaya tranzit haqqı almağa, Avropaya isə qaz almağa davam etməyə imkan verərdi", – məqalədə deyilir.

Azərbaycan Prezidentinin sessiyada çıxışı Türkiyənin aparıcı media qurumları tərəfindən də geniş işıqlandırılıb. Anadolu agentliyi, "TRT", "Haber Global, "Sözcü", "Sputnik Türkiyə", "Haberler.com", "Son dakika", "Star.com" kimi bir sıra media qurumları, "Milliyet", "Cumhuriyyet", "Yeni Şafak" qəzetləri, eləcə də bir çox müxtəlif formatda fəaliyyət göstərən media qurumları dövlətimizin başçısının səfərinə diqqət ayırıb.

"Əliyev Ermənistanla sülh sazişinin mətninin 80 faizini razılaşdırdıqlarını bildirib", "Azərbaycan Prezidenti İlham Əliyev: Sülh sazişi mətninin 80 faizi üzrə razılıq əldə olunub", "Əliyevdən "Ermənistan" mesajı: Biz 80 faizlə razılaşdıq", "Əliyev açıqladı: Ermənistanla sülh sazişi mətninin 80 faizi ilə bağlı razılıq əldə edilib" və digər sərlövhələrlə yayımlanan xəbərlərdə Prezident İlham Əliyevin forumdakı çıxışına istinadlar edilib.

Azərbaycan liderinin Avropanın enerji təhlükəsizliyi və Rusiya qazının tranziti ilə bağlı bəyanatları həmçinin "Financial Post", "The Straits Times", "U.S. News", "World Energy News" agentliklərində geniş işıqlandırılıb.

"Moskovskiy komsomolets" qəzeti isə öz növbəsində Prezident İlham Əliyevin Ukraynanın ərazi bütövlüyünün dəstəklənməsi və Bakının Rusiyaya qarşı sanksiyalarla bağlı mövqeyi ilə əlaqədar səsləndirdiyi bəyanatlara məqalə həsr edib.

"Biz Ukraynanın və bütün ölkələrin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Amma Azərbaycan anti-Rusiya sanksiyaları kampaniyasının bir hissəsi olmayıb və olmayacaq da", – nəşr Prezident İlham Əliyevdən sitat gətirib.

Rusiyanın TASS informasiya agentliyi "Əliyev Bakının Moskva ilə Kiyev arasında nizamlanmada iştirak etməyə hazır olduğunu bildirib" məqaləsində qeyd edir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin Rusiya ilə Ukrayna arasında münaqişənin həllində iştirakının mümkünlüyünü istisna etməyib.

Azərbaycan Prezidentinin Rusiya və Ukrayna ilə bağlı bəyanatları həmçinin Rusiyanın "Komsomolskaya pravda", "İnterfaks", "Vedomosti", "İzvestiya" və s. media orqanlarında da geniş işıqlandırılıb.

**XQ**

# Bakı Təşəbbüs Qrupunun dünya qurumlarına məktubu

**Bakı Təşəbbüs Qrupu 2024-cü il sentyabrın 3-də Bakıda keçirilmiş "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfransın nəticələrinə əsaslanaraq Birləşmiş Millətlər Təşkilatının Baş katibinə, Qoşulmama Hərəkatının sədrinə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə, Avropa Komissiyasının sədrinə, Ərəb Liqasının Baş katibinə və Afrika İttifaqının sədrinə rəsmi məktub ünvanlayıb.**

Məktubda Fransa tərəfindən Qəmər Adaları İttifaqına aid olan Mayot adasının qanunsuz işğalı ilə bağlı dərin narahatlıq ifadə edilib və bunun beynəlxalq hüququn pozuntusu olduğu bildirilib.

Məktubda qeyd olunur ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasından sui-istifadə edərək beynəlxalq hüququn bu pozuntusunun həllinə yönəlik təşəbbüslərə mane olur. Həmçinin Fransa BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Liqası və Afrika İttifaqı kimi beynəlxalq təşkilatların qəbul etdiyi müvafiq qətnamələri heçə sayır.




Bakı Təşəbbüs Qrupu, eyni zamanda, məktubunda Mayot adasının işğalı ilə bağlı beynəlxalq konfrans keçirməyə və işğalın dayandırılması, beynəlxalq hüququn qorunması məqsədilə bu qurumların daxilində müvafiq işçi qruplarının yaradılmasını təşviq etməyə çağırıb.

# Ordu bölmələrinin döyüş hazırlığı

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini – Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev şərti sərhəd istiqamətində dislokasiya olunan bölmələrin hazırlığını yoxlayıb.**



Məruzə edilib ki, bölmələrdə günün nizam qaydalarına uyğun sutkaboyu döyüş növbətçiliyi yüksək səviyyədə təşkil olunur və fasiləsiz xidmət aparılır.

Döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən müdafiə naziri hərbi qulluqçuların döyüş və psixoloji hazırlığını yüksək qiymətləndirib. General-polkovnik Z.Həsənov xidməti-döyüş fəaliyyətinin daha keyfiyyətli təşkili, eləcə də ayıq-sayıqlığın artırılmasına dair aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

**XQ**

# Azərbaycanlı nazirin BMT təmsilçisi ilə görüşü

**Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri xanım Bik Lum ilə görüşüb.**

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayıb.

Görüş zamanı cari ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**




# Hərbi hissədə intihar

**Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Abbasov Vəli Asəf oğlunun odlu silahdan istifadə etməklə özünü öldürməsi barədə Şəmkir hərbi prokurorluğuna məlumat daxil olub.**

Bu barədə Respublika Hərbi Prokurorluğundan məlumat verilib.

Bildirilib ki, daxil olmuş məlumat əsasında Şəmkir hərbi prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları idarəsinin əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, eləcə də izahatlar alınıb və digər hərəkətlər icra edilib:

"Fakt üzrə Şəmkir hərbi prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müxtəlif ekspertizalar təyin edilərək, icraya yönəldilmiş və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq".

**XQ**

"Əsrin müqaviləsi" – 30

# "Faza-3" – Xəzər yataqlarının tammiqyaslı işlənməsinin həlledici mərhələsi

## *"Dərinsulu Günəşli" platformasından indiyədək 87 milyon ton neft çıxarılıb*



**Ötən əsrin 80-ci illərinin əvvəllərində Azərbaycan neftçilərinin şücaəti sayəsində istismara verilmiş "Günəşli" yatağı öz zənginliyi ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən digər yataqları xeyli üstələyirdi. Bununla belə, işlənmənin ilk mərhələsində yatağın yalnız dayaz sulu hissəsindən neft çıxarılırdı. Yaxınlıqda istismarını gözləyən "Çıraq" və "Azəri" kimi zəngin neft yataqları da yerləşirdi.**

O zaman respublikamızın məhdud maliyyə imkanları, eləcə də lazımi texnologiyanın olmaması bu yataqların istismarında bir sıra çətinliklər yaradırdı. Yalnız 1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun zəngin karbohidrogen ehtiyatlarının işlənməyə cəlb edilməsinə yol açıb. 30 il müddətinə imzalanmış bu tarixi saziş isə geniş bir coğrafi ərazini əhatə etdiyindən neft yataqlarının mərhələli şəkildə istismara daxil edilməsi qərara alınıb.

Beləliklə, "Əsrin müqaviləsi"nin "İlkin neft layihəsi" çərçivəsində "Çıraq" yatağı istismara verilib. Daha sonra isə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Rəhbər Komitəsi "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun tammiqyaslı işlənmə mərhələsi ilə bağlı qərar qəbul edib. Bu mərhələnin "Faza-1" və "Faza-2" layihələri çərçivəsində müvafiq olaraq "Azəri" yatağının mərkəzi, eləcə də qərb və şərq hissələri işlənməyə cəlb olunub.

"Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasilatını həyata keçirməyi nəzərdə tutan "Faza-3" layihəsi ilə bağlı qərar isə 2004-cü ilin sentyabr ayında – "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş yubiley tədbirində qəbul edilib. Layihənin reallaşdırılması üçün 4,7 milyard dollar vəsait ayrılıb ki, bunun da 3,2 milyard dolları tikinti-quraşdırma işlərinə sərf olunub. Onu da qeyd edək ki, "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsinin sonuncu mərhələsi olan "Faza-3" layihəsi 1,25 milyard barel və ya 176 milyon ton neftin çıxarılmasına hesablanıb.

Layihə dənizin 175 metr dərinliyində bir-biri ilə suüstü körpü ilə birləşdirilən iki nəhəng qurğunun – hasilat və kompressor (laylarda təzyiqi saxlamaq üçün su və qazın vurulması) platformalarının tikintisi ilə yanaşı, bir sıra sualtı birləşdirici kəmərlərin çəkilişi kimi mürəkkəb işləri də əhatə edib. Bütün bu işləri yerinə yetirmək üçün dünyanın neft sənayesi üzrə tanınmış podratçı şirkətləri ilə müqavilələr imzalanıb.

Podrat müqavilələrinə əsasən, layihənin mühəndis-təfsilat işlərinin həyata keçirilməsi, eləcə də qazma, texnoloji təchizat və yaşayış platformasının birləşmiş göyərtəsinin yığılması, quraşdırılması və istismara verilməsi müvafiq olaraq ABŞ-nin "Halliburton International" və "McDermott" şirkətlərinə, platformaların tikintisi Fransanın "BOS Shelf" şirkətinin və SOCAR-ın Heydər Əliyev adına Dərin Özüllər Zavodunun yaratdıqları "BOS Shelf LLC" birgə müəssisəsinə, emal, qaz kompressoru, suvurma və texnoloji təchizat platformasının yığılması, quraşdırılması və istismara verilməsi Britaniya–Türkiyə–Azərbaycan alyansı olan "Amec-Tekfen-Azfen" şirkətinə həvalə olunub.

Bundan əlavə, "Faza-3" layihəsi çərçivəsində bir sıra digər tikinti-quraşdırma işlərinin yerinə yetrilməsi üçün "BP-Azerbaijan" şirkəti ilə İtaliyanın "Saipem", İsveçin "Pharmadule Emtunga AB", Niderlandın "Mercon Steel Structures BV", Britaniyanın "KCA Deutag" və ABŞ-nin "Vetco Grey Controls" şirkətləri, həmçinin Türkiyə–Azərbaycan "Tekfen-Azfen" alyansı ilə podrat müavələləri imzalanıb.

Bu işlərin qrafikə uyğun olaraq iki il müddətində başa çatdırılması nəzərdə tutulub. Yeri gəlmişkən, əvvəlkilərdən fərqli olaraq "Faza-3" platformaları suyun daha dərin hissəsində inşa olunub. Eyni zamanda, bu unikal qurğular daha mürəkkəb geoloji şəraitdə hasilatın həyata keçirilməsinə hesablanıb. "Dərinsulu Günəşli" kompleksinin tikintisi ilə bağlı işlərin bir qismi ölkə daxilində, digər qismi isə "McDermott"un Dubaydakı müəssisələrində iki il ərzində yerinə yetirilib.

"Faza-3" layihəsinin icrası zamanı konsorsium iştirakçıları tərəfindən nəzərdə tutulmuş 30 milyon adam-iş saatı öhdəliyinə tam təhlükəsiz şəkildə riayət edilib. Əsas tikinti-quraşdırma işlərinin yerinə yetirilməsində Azərbaycanın kadr potensialından maksimum istifadə olunub. Belə ki, tikinti-quraşdırma işlərinin 80 faizindən çoxu yerli işçi qüvvəsindən və mövcud infrastrukturdan istifadə olunmaqla ölkə daxilində yerinə yetirilib. Ümumilikdə, "Faza-3" layihəsi çərçivəsində bir-biri ilə körpü vasitəsilə birləşdirilən 48 quyu gövdəsinə malik qazma, texnoloji təchizat və yaşayış, eləcə də texnoloji emal, qaz kompressor, suvurma və texnoloji təchizat platformaları inşa olunub, xam neftin və qazın Səngəçal terminalına nəqlini təmin etmək məqsədilə 30 və 28 düymlük sualtı boru kəmərləri çəkilib.

"Dərinsulu Günəşli" platformasında hasilat 2008-ci il aprelin sonlarında başlanıb. Bununla da, "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsi təmin edilib. "Dərinsulu Günəşli" platformasında maksimal illik neft hasilatı 2014-cü ildə qeydə alınıb. Həmin il burada 7,2 milyon ton neft çıxarılıb. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində gündəlik orta neft hasilat 145,9 min barel təşkil etdiyi halda, ehtiyatların azalması səbəbindən cari ilin birinci yarısının yekunlarına görə, bu rəqəm 57 min barel olub. Ümumilkdə, istismara verildiyi vaxtdan indiyədək "Dərinsulu Günəşli" platformasından 642 milyon barel və ya 87 milyon ton neft çıxarılıb.

# Balakənlilərin əkin-biçin qayğıları

## *Məhsul istehsalının 40 faizi aqrar sahənin payına düşür*





**Ölkəmizin şimal-qərb bölgəsində Gürcüstan və Rusiya Federasiyası ilə sərhəd ərazisində yerləşən Balakən füsunkar təbiəti, əlverişli iqlim şəraiti, geniş meşə örtüyü, bol suyu olan dağ çayları və məhsuldar torpaqları ilə seçilir. Rayonun əlverişli coğrafi mövqedə yerləşməsi və iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etməsi aqrar sahənin inkişafına geniş imkanlar yaradır.**

Balakənin əməksevər əhalisi uzun illər kənd təsərrüfatı sahəsində zəngin təcrübə qazanıb və bu sahədə böyük uğurlar əldə edib. Təsadüfi deyildir ki, balakənlilərin 66 faizi kənd təsərrüfatında çalışır. İstehsal olunan məhsulun 40 faizi aqrar sahənin payına düsur. Əhalinin məşğuliyyətində taxılçılıq, o cümlədən, tərəvəzçilik, bostançılıq, tütünçülük, meyvəçilik, baramaçılıq və heyvandarlıq əsas rol oynayır.

Rayonun fermerləri mövcud torpaq sahələrindən səmərəli yararlanır və hər il daha yüksək nailiyyətlər əldə etməklə təsərrüfatlarının inkişafını diqqətdə saxlayırlar. Bu məqsədlə də cari təsərrüfat ilində 6 min 943 hektar sahədə qarğıdalı, 1676 hektar sahədə tərəvəz, 640 hektar sahədə kartof, 346 hektar sahədə bostan, 82 hektar sahədə tütün, 800 hektar sahədə yonca və digər bitkilər əkilməsi təmin olunub, eləcə də, məhsuldarlığın artırılması üçün əlavə tədbirlər həyata keçirilib. Fermerlər dövlətin bu sahədə göstərdiyi dəstəkdən yararlanıb, əkin subsidiyalarından faydalanıb, mineral gübrələrə, pestisidlərə, məhsuldar toxumlara olan tələbatını ödəyərək təsərrüfatlarını qurublar.

Təsərrufatlarda 5 min 192 ton taxıl, 20 min 775 ton tərəvəz, 6 min 655 ton kartof, 4 min 210 ton bostan məhsulları istehsal olunub, qarğıdalı və fındıq yığımına başlanılıb. Hazırda rayonda kənd təsərrüfatı məhsullarının toplanılması davam etdirilir.

Son illərdə əhalinin məşğuliyyətinin təmin edilməsi üçün baramaçılığın, tütünçülüyün, fındıqçılığın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan baramaçılığın əvvəlki şöhrətinin bərpası məqsədilə cari ildə 700 qutu ipəkqurdu 204 kümçüyə paylanılıb. Kümçülər tərəfindən 30-40 gün ərzində ipəkqurdu bəslənilərək 1875 ton barama istehsal edilib və "Azəripək" MMC-yə təhvil verilib. Kümçülərə, eyni zamanda, istehsal etdikləri baramanın dəyəri ilə yanaşı, 109 min 608 manat həcmində məhsul subsidiyasının da ödənilməsi təmin olunub.

Cari ildə tütünçülüyün inkişafı məqsədilə müəyyən tədbirlər görülüb, 82 hektar sahədə məhsul yetişdirilib və 694 ton yaş tütün istehsal edilərək tədarükçü təşkilatlara təhvil verilib.

Balakən respublikanın ən çox qarğıdalı istehsal olunan rayonudur. İnsanların bu sahədə qazandığı uğurlar kənd təsərrüfatından əldə olunan gəlirlərin formalaşmasında mühüm rol oynayır. Artıq sahələrdə qarğıdalı və fındıq yığımına başlanılıb və 9 min 100 ton qarğıdalı və 3 min 550 ton fındıq yığılıb. Cari təsərrüfat ilində 46 min 500 ton qarğıdalı və 6 min 900 ton fındıq istehsal edilməsi nəzərdə tutulub.

Rayonda qeyd edilən sahələrlə yanaşı, meyvəçiliyin də inkişafına xüsusi önəm verilir. "Balxurma" və "Balacans" şirkətlərinin, fındıq emalı müəssisələrinin fəaliyyət göstərməsi meyvəçiliyin tərəqqisinə geniş imkanlar açıb. Balakəndə istehsal olunan quru və yaş xurma məhsulları, müxtəlif növ şirələr, fındıq ləpəsi, qurudulmuş tütün dünyanın inkişaf etmiş bir çox ölkələrinə ixrac olunur. Bu da xaricdən daxil olan valyutanın artmasını şərtləndirir.

Rayonun meyvəçilik sahəsində elmin və texnologiyanın yeni nailiyyətlərinin təsərrüfatlara tətbiqinə xüsusi əhəmiyyət verilir. İntensiv və superintensiv bağların salınmasına diqqət göstərilir. Son illərdə 216 hektara yaxın intensiv və superintensiv yeni meyvə bağları salınıb və müxtəlif növ meyvələr istehsal olunub.

Balakəndə bitkiçiliklə yanaşı, heyvandarlıq da inkişaf etdirilir. "Azəryem sənayesi" MMC-nin fəaliyyət göstərməsi və heyvandarlıqda istifadə olunan yüksək kalorili yem məhsullarının istehsal edilməsi, eyni zamanda, heyvandarlıqla yanaşı, qarğıdalıçılığın daha da inkişafına əlavə imkanlar yaradır.

Rayonda 27 min 259 baş qaramal, 36 min 801 baş davar, 30 min 884 arı ailəsi saxlanılır. Bununla yanaşı, camışçılığın inkişafına da diqqət göstərilir və camışların sayı 2 min 320 başa çatıb. İl ərzində Balakəndə orta hesabla 22 min 312 ton süd, 4 min 305 ton ət, 41 ton yun istehsal olunub.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

**Balakən rayonu**

# Naxçıvanda torpaq müsabiqəsi

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs Naxçıvan şəhər Əliabad bələdiyyəsinə məxsus 1 torpaq sahəsinin mülkiyyətə verilməsi ilə bağlı ilk dəfə torpaq müsabiqəsi keçirib.**



Məktəb və bağça binasının tikintisi məqsədilə müsabiqəyə çıxarılan torpaq sahəsinin satışı prosesində 2 sifarişçi iştirak edib. Əmlak Məsələləri Dövlət Xidmətində keçirilən müsabiqədə möhürlü zərflər komissiya üzvlərinin iştirakı ilə açılıb və ən yüksək qiymət təklif edən sifarişçi qalib elan olunub.

Bu ilin 26 sentyabrında növbəti torpaq müsabiqəsinin keçirilməsi nəzərdə tutulub.

*Səbuhi HƏSƏNOV*
*XQ*

# Beynəlxalq Maliyyə Korporasiyası ilə dövlət–özəl sektor tərəfdaşlığı



**Azərbaycan Beynəlxalq Maliyyə Korporasiyası ilə dövlət–özəl sektor tərəfdaşlığı və potensial layihələri müzakirə edib. Bu barədə İqtisadiyyat Nazirliyi məlumat yayıb.**

İqtisadiyyat nazirinin müavini Səməd Başirli ilə IFC-nin Avropa üzrə regional direktoru İnes Roşa arasında keçirilən görüşdə ölkəmizdə aparılan iqtisadi islahatların beynəlxalq maliyyə qurumları tərəfindən dəstəkləndiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycanın IFC ilə əməkdaşlığının genişlənməsi, bu kontekstdə ölkəmizdə mütərəqqi təcrübə və yeniliklərin təşviqi önəm daşıyır.

Tədbirdə Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetləri, əlverişli işgüzar mühiti, investorlar üçün yaradılan imkanlar barədə məlumat verilib. Bildirilib ki, ölkəmizin iştirakçısı olduğu nəhəng layihələr regionda dayanıqlı inkişafın təmin edilməsində önəmli faktora çevrilib. Eyni zamanda, ölkəmizdə dövlət–özəl sektor tərəfdaşlığı üzrə layihələrin reallaşdırılması üçün böyük imkanların olduğu diqqətə çatdırılıb.

Tərəflər, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı layihəsi üzrə əməkdaşlıq və IFC-nin cəlb oluna biləcəyi potensial layihələr barədə müzakirə aparıblar.

# Bakı Gəmiqayırma Zavodu gücünü artırır

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Qaradağ Sənaye Parkının rezidenti "Bakı Gəmiqayırma Zavodu" MMC-nin istehsal həcmi artıb.**



Qurumdan verilən məlumata görə, 2024-cü ilin birinci yarısında müəssisədə 25 milyon manatlıq iş görülüb. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,7 milyon manat və ya 3 dəfə çoxdur. Ötən müddətdə zavodda 722 nəfər daimi işlə təmin edilib. "Bakı Gəmiqayırma Zavodu" MMC-də Qaradağ Sənaye Parkında tətbiq edilmiş idxal əlavə dəyər vergisi və gömrük güzəştləri nəticəsində 2015-ci ildən indiyədək 73 milyon manatdan çox vəsaitə qənaət olunub.

Xatırladaq ki, müəssisə müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə, dəniz və mühəndislik işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# Şirin su probleminin həlli dövlətlərin strateji hədəfidir




**Su resurslarının məişət, sənaye və kənd təsərrüfatında səmərəsiz istifadəsi, inkişaf etməkdə olan ölkələrdə baş verən əhali artımı, suvarılan sahələrin genişlənməsi, meşələrin qırılması bir tərəfdən qlobal istiləşmə və quraqlığın artmasına, digər tərəfdən, şirin su ehtiyatlarının kritik böhran həddində azalmasına gətirib çıxarıb.**

Beynəlxalq ekoloji və iqtisadi araşdırma mərkəzlərinin proqnozlarına görə, proseslər belə davam edərsə, yaxın gələcəkdə Yer kürəsində quraqlıq qlobal xarakter alacaq və şirin su resurslarının çatışmazlığının artması isə təkcə Afrika qitəsində yox, bütün dünyada ciddi ərzaq qıtlığı təhlükəsi yaradacaq. Belə qorxulu proqnozlardan düzgün nəticə çıxararaq müxtəlif həcmdə su ehtiyatlarına malik olan bir sıra ölkələr su qıtlığının fəsadları ilə üzləşməmək üçün artıq bu problemin həlli yollarını axtararaq müəyyən konkret addımlar atırlar.

Nümunə olaraq qardaş Türkiyə dövlətini göstərmək olar. Bu ölkənin şirin su ehtiyatının bir sıra Asiya və Afrika ölkələrinə nisbətən daha çox olmasına baxmayaraq, quraqlıq dövründə su qıtlığı ilə bağlı baş verə biləcək ağır fəsadların qarşısının alınması məqsədilə Dəclə, Fərat və Kür kimi transsərhəd çayların üzərində iri su anbarları yaradılır.

Avropa qitəsində yerləşən Belçikada isə qəbul edilən müvafiq qanuna əsasən, yeni tikilən çoxmərtəbəli binalarda və şəxsi evlərdə yağış suyunun toplanılması, həmçinin ondan texniki su kimi istifadə üçün çənlərin quraşdırılması kimi məcburi qaydalar tətbiq olunub.

Rusiya Federasiyasında da quraqlıqdan qorunmaq üçün qabaqlayıcı tədbirlər həyata keçirilir, su anbarları və süni göllər yaradılır, habelə su mənbələri arasında tarazlığı qorumaq məqsədi ilə onları birləşdirən xüsusi kanallar çəkilir. Müxtəlif həcmdə su ehtiyatları olan ölkələrdən gətirdiyimiz nümunələr bir daha göstərir ki, qlobal istiləşmədən irəli gələn quraqlıq və su qıtlığı problemi Azərbaycanı, eləcə də su ehtiyatlarının həcmindən asılı olmayaraq dünyanın bütün ölkələrini narahat edir.

Azərbaycanda da yuxarıda göstərilən səbəblər üzündən son illərdə şirin su ehtiyatları kəskin azalmağa başlayıb. Buna bariz nümunə kimi təkcə onu göstərmək kifayətdir ki, respublikamızın əsas su arteriyası sayılan Kür çayında suyun miqdarının kəskin azalması ildən-ilə davam edib. Əgər ölkə ərazisinin ¾ hissəsinin Kürün hövzəsinə düşdüyünü və bu çayın suyunun əhali üçün əsas içməli və suvarma su mənbələrindən biri olduğunu nəzərə alsaq, onda çayın səviyyəsinin getdikcə aşağı düşməsinin respublikamızın ümumi su resurslarının azalmasına mənfi təsir göstərdiyi barədə aydın təsəvvür yaranar.

Su qıtlığından baş verə biləcək fəsadları düzgün qiymətləndirən ölkə rəhbərliyi iqtisadiyyatın bütün sahələrində suya olan tələbatın təmin edilməsi üçün dövlət səviyyəsində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayıb. Dövlət başçısının tapşırığı ilə yeni iqtisadi çağırışlar nəzərə alınaraq ehtiyat su resursları “bankı” yaratmaq üzrə müvafiq tədbirlər həyata keçirilib və sudan qənaətlə istifadə etmək üçün innovasiyaların tətbiqinə və təşviqinə prioritet məsələ kimi yanaşılıb. Məhz bunun nəticəsidir ki, 2004-cü ildə ölkəmizdəki içməli su ilə təminat 40 faizə yaxın olduğu halda, hazırda bu rəqəm 70 faizə çatdırılıb.

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: “Biz bunu, ilk növbədə, insanların sağlamlığı, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı üçün etmişik. Ancaq bununla bərabər, bu rəqəmlər onu göstərir ki, biz istədiyimizə tam nail ola bilməmişik. Buna görə bundan sonra içməli su layihələri, meliorasiya layihələri bizim gündəliyimizdə ən vacib məsələlər kimi duracaq və bunun da nəticəsi Azərbaycanda içməli su və suvarma suyu ilə təminatı 100 faizə çatdırmaq olacaqdır”.

Ölkə rəhbərinin Azərbaycanda içməli suya tələbatı 100 faiz təmin etmək çağırışı Oğuz–Qəbələ–Bakı su kəməri, Taxtakörpü su anbarı kimi böyük layihələrin uğurla gerçəkləşməsi ilə nəticələnib və bu istiqamətdə müsbət nəticələr əldə olunub. Oğuz–Qəbələ–Bakı su kəməri Bakı şəhərinin su təminatının yaxşılaşdırılması ilə bağlı yeganə layihə deyil. Bununla yanaşı, Taxtakörpü su anbarının suyunun Ceyranbatan anbarına qədər axıdılması üçün əlavə yeni beton kanal inşa edilib. Ümumiyyətlə, Taxtakörpü su anbarının rolu tək Bakı şəhərinin şirin suya olan tələbatının yaxşılaşdırılması ilə kifayətlənmir. Bundan əlavə, bu anbardan Şabran, Siyəzən və Xızı rayonlarının, təqribən, 30 min hektar suvarılmayan torpaqlarına su verilir və nəticədə həmin sahələrdə bol kənd təsərrüfatı bitkiləri becərilir.

Oğuz–Qəbələ–Bakı su kəmərinin çəkilməsindən və Taxtakörpü su anbarının tikintisindən sonra su təminatı ilə bağlı vəziyyəti daha da yaxşılaşdırmaq üçün infrastruktur quruculuğu da diqqət mərkəzində saxlanılıb, dövlətin birbaşa dəstəyi ilə yeni sututarlar yaradılıb və şəbəkə infrastrukturunun genişləndirilməsi üzrə mühüm layihələr gerçəkləşdirilib. Həyata keçirilən bu tədbirlər hesabına su təsərrüfatı sisteminin inkişafı sürətlənib, məhdud şirin su ehtiyatlarına malik respublikamızda əhalinin içməli su ilə təminatı və irriqasiya sistemi əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.

Bütün görülən işlərə baxmayaraq, ölkəmizdə şirin su ehtiyatlarının azlığı, qlobal iqlim dəyişikliyi, eyni zamanda, əhalinin artımı, iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının inkişafı, suvarma və içməli su təchizatı şəbəkələrinin genişləndirilməsi nəticəsində suya tələbatın artması Azərbaycanda su təhlükəsizliyinin gerçəkləşdirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini daha da aktual edir.

Azərbaycanın işğaldan azad edilmiş bölgələri su ehtiyatları baxımından kifayət qədər zəngindir. Ölkənin ümumi su ehtiyatlarının 25 faizi məhz Qarabağ və Şərqi Zəngəzur ərazisindədir. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su ehtiyatı respublikamızın ümumi su resurslarının 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşır.

*Teymur NİZAMZADƏ,*
*Bakı Dövlət Universitetinin dosenti,*
*coğrafiya üzrə fəlsəfə doktoru*

# Azərbaycanın “təmiz tikinti” üzrə beynəlxalq əməkdaşlığı genişlənir

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən aldığımız məlumata görə, komitənin sədri Anar Quliyevin Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) regional direktoru İnes Roçanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə Azərbaycanla IFC arasında “yaşıl” tikinti sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.**




Söhbət zamanı “yaşıl” tikinti sahəsində aparıcı qlobal təcrübənin ölkəmizdə öyrənilməsi və tətbiqi üçün korporasiyası ilə birgə növbəti addımların atılması zəruriliyi bildirilib. Eyni zamanda, görüşdə tikinti layihələrinin “yaşıllaşdırılmasını” və karbon emissiyasının minimuma endirilməsini təşviq edəcək müvafiq sertifikatlaşdırma işinin təşkili imkanları da önəmli müzakirə predmeti olub.

IFC-nin Avropa üzrə regional direktoru bu təşəbbüsləri dəstəkləməyə hazır olduqlarını qeyd edərək, Azərbaycanın ekoloji cəhətdən təmiz tikinti materialları və aşağı karbonlu binaların təşviqi sahəsində səylərini yüksək qiymətləndirib. O, həmçinin korporasiyanın dəstəyi ilə dünyanın 96 ölkəsində reallaşdırılan “yaşıl” bina layihəsi ilə bağlı qazanılan qabaqcıl təcrübəni Azərbaycanla da bölüşmək istədiklərini bildirib.

Xatırladaq ki, Azərbaycan son illərdə bərpaolunan enerji layihələrinin gerçəkləşdirilməsinə mühüm önəm verir və bununla bağlı dünyanın nüfuzlu maliyyə qurumları ilə əməkdaşlığını genişləndirir. Respublikamızın Dünya Bankının (DB) üzvü olan IFC ilə münasibətlərində də bu məsələ prioritet istiqamət kimi diqqət çəkir. IFC-nin “Azərbaycanda dənizdə külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi”ndə göstərildiyi kimi, 2040-cı ilədək Azərbaycan dəniz küləyindən enerji hasilatı üçün 7 QVt qoyuluş gücünə nail ola bilər. Bununla da ölkənin dekarbonlaşma və dayanıqlı iqtisadi artım kimi paralel prioritetlərinin icrası sürətlənər.

Azərbaycanda ilk dəfə hazırlanmış dəniz külək enerjisi üzrə adıçəkilən Yol Xəritəsinin məqsədi dəniz külək energetikasına dünyada artan maraq şəraitində bu yeni sənaye ilə bağlı normativlər, hüquqi çərçivə və infrastrukturla bağlı qərarların verilməsinə yardım etməkdir. Yol Xəritəsində dəniz külək energetikası potensialının istifadəsi məqsədilə tədbirlər də təqdim edilir. Həmin tədbirlərin sırasına 2030-cu və 2036-cı illər üçün 200 meqavat gücündə pilot layihəsinin, sonra isə bu qəbildən olan daha iri təşəbbüslərin işlənib hazırlanması və rəqabətli müsabiqə şəraitində tikilməsi, istifadəyə verilməsi, dəniz küləyi üçün yeni perspektivli sahələrin kəşf edilməsi, infrastrukturun modernləşdirilməsi, habelə dəniz külək energetikası sahəsində davamlı layihələrin ardıcıllığını gerçəkləşdirmək üçün dövlət qurumlarında müvafiq bilik və bacarıqların artırılması daxildir.

Yeri gəlmişkən, təhlillərə əsasən, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsində qiymətləndirilib. Layihə çərçivəsində, eyni zamanda, dənizdə müvafiq layihələrlə bağlı investorların cəlbi, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər nəzərdə tutulub.

IFC-nin təqdim etdiyi “Azərbaycanda dənizdə külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi”ndə ölkəmizdə 2050-ci ilədək karbon emissiyalarının 40 faizədək azaldılması qarşıya əsas vəzifə kimi qoyulur. Bununla da korporasiya həyata keçirilən və planlaşdırılan bərpaolunan enerji layihələrinin respublikamızın qlobal enerji keçidi prosesinə milli səviyyədə töhfəsini gerçəkləşdirir.

Beləliklə, IFC ölkəmizlə dənizdə külək enerjisindən istifadə üzrə Yol Xəritəsi çərçivəsində, eləcə də “Azərbaycan üçün Çevik Texniki Yardım Proqramının (AZTAF) enerji səmərəliliyi komponenti üzrə məsləhətçi xidmətlərinin göstərilməsi”, “Azərbaycanın enerji sistemində bərpaolunan enerji güclərinin genişləndirməsinə dəstək” layihələri üzrə əməkdaşlıq edir. Eyni zamanda, 1862 MVt gücündə bərpaolunan enerji stansiyalarının şəbəkəyə inteqrasiyası məqsədilə elektrik enerjisi sisteminin gücləndirilməsi ilə bağlı Dövlət Proqramı hazırlanmasında səmərəli fəaliyyət göstərir.

Azərbaycanın bərpaolunan enerji layihələrinin icrasını IFC daim dəstəkləyib. Energetika Nazirliyi ilə bu korporasiya arasında respublikamızda dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair 2021-ci il aprelin 14-də Anlaşma Memorandumu imzalanıb. Sənəddə ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin təşviqi, həmçinin energetika sektorunun maliyyə davamlılığı və səmərəliliyinin artırılması üçün bu sahədə özəl sektorun iştirakının dəstəklənməsi kimi ümumi məqsədlərin reallaşdırılması nəzərdə tutulub.

Memoranduma əsasən, IFC ilə əməkdaşlıq Azərbaycanda dənizdə külək enerjisi potensialının qiymətləndirilməsini və Yol Xəritəsinin işlənib hazırlanmasını, növbəti mərhələdə isə dənizdə müvafiq layihələrlə bağlı tenderlərin təşkili, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər önə çəkilir.

Bütün bu təşəbbüslərin gerçəkləşdirilməsinin nəticəsidir ki, son illər ərzində təkcə neft-qaz sektorunda deyil, həmçinin bərpaolunan enerji sahəsində də nəzərəçarpacaq uğurlar əldə edilir. Bunun bir səbəbi vurğulandığı kimi, Azərbaycanın bu istiqamətdə beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlığı ilə bağlıdırsa, digər səbəbi ölkəmizin zəngin bərpaolunan enerji potensialına malik olması ilə əlaqədardır.

# “Yaşıl enerji məkanı” fəaliyyətini genişləndirir



**“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə yaradılmış “Yaşıl enerji məkanı” işçi qrupun hibrid formada növbəti iclası keçirilib. Bu barədə “XQ”yə Energetika Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, iclasa sədrlik edən energetika nazirinin müavini Samir Vəliyev çıxışında sözügedən strategiyanın icrası çərçivəsində reallaşdırılan layihələrin “Yaşıl dünya naminə həmrəylik ili” üzrə həyata keçirilən tədbirlərlə ahəng təşkil etdiyini qeyd edib. İşçi qrupun iclaslarının müntəzəm keçirilməsinin hesabatlılığın effektivliyini artırdığını vurğulayan nazir müavini gündəlikdə duran məsələləri diqqətə çatdırıb. İşçi qrupun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn strategiyanın icrası çərçivəsində 2024-cü ilin birinci yarısı üzrə aparılmış monitorinqin nəticələrinə dair ilkin qiymətləndirmə hesabatını təqdim edib.

İclasda “Yaşıl enerji məkanı” məqsədi üzrə tədbirlərin icra göstəriciləri, 6 fəaliyyət istiqaməti üzrə indikatorlar və nəzərdə tutulmuş hədəflər çərçivəsində icra olunan işlər barədə məlumat verilib, qaz və istilik təchizatı sahələrində dövlət–özəl tərəfdaşlığının inkişaf etdirilməsi, dənizdə külək enerjisi potensialının araşdırılması, bioenerji və geotermal enerjidən istifadə imkanlarının genişləndirilməsi məsələləri müzakirə edilib. Bununla yanaşı, tədbirdə bərpaolunan enerji mənbələri üzrə informasiya sisteminin yaradılması, Elektromobillik üzrə Milli Planın hazırlanması, enerji saxlanc sistemlərinin tətbiqi, karbon tutulması, utilizasiyası və saxlanması texnologiyalarının tətbiqi, iqtisadiyyatın müxtəlif sahələrində enerji səmərəliliyinin təmin edilməsi və digər istiqamətlərdə yerinə yetirilmiş tədbirlər nəzərdən keçirilib.

Sonra digər qrup üzvlərinin hesabatla bağlı məruzələri dinlənilib, atılacaq növbəti addımlar, çağırış və tövsiyələr nəzərdən keçirilib. Strategiya sənədi üzrə qarşıdakı dövrdə tədbirlərin effektiv icrası ilə bağlı tapşırıqlar diqqətə çatdırılıb.

# COP29 “yaşıl” iqtisadiyyata keçidi sürətləndirəcək

**İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, nazirin birinci müavini Elnur Əliyev Beynəlxalq Parlamentarilər Konqresinin nümayəndə heyəti ilə görüşündə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin “yaşıl” iqtisadiyyatın inkişafına, qlobal iqlim problemlərinin həllinə verdiyi önəmin göstəricisi olduğunu vurğulayıb.**

E.Əliyev, həmçinin COP29 çərçivəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın diqqət mərkəzində olduğunu bildirib, eyni zamanda, ölkəmizdə “yaşıl” enerjinin təşviqi və qlobal iqlim dəyişikliyinin təsirlərinin azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət göstərildiyini qeyd edib.

Görüşdə Beynəlxalq Parlamentarilər Konqresinin İqlim Dəyişikliyi üzrə Beyin Mərkəzinə dair təşəbbüsü çərçivəsində tərəfdaşlıq məsələləri müzakirə olunub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Bizim bir Vətənimiz var – Azərbaycan!

**Sentyabrın 9-11-də, Bakıda Xaricdə yaşayan azərbaycanlı alimlərin 1-ci Forumu keçiriləcəkdir. Müsahibimiz Forumun iştirakçısı Moskva "MİET" Milli Tədqiqat Universitetinin professoru Ələddin Allahverdiyevdir.**

**Arayış:** Professor Ələddin Allahverdiyev dünya okeanı və kosmik fəzanın tədqiqatlarında, dəniz seysmik kəşfiyyatı, elektron, müdafiə və tibb sənayesində istifadə olunan pyezoelektrik cihazların və aparatların yaradılmasında dalğa və rəqs proseslərinin öyrənilməsi üçün riyazi modellərin və metodların yaradılması sahəsində Sovet, Rusiya və Azərbaycan alimidir. O, 1947-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Kəsəmən kəndində anadan olub. Bakıda 190 saylı orta məktəbi medalla bitirib. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin və onun aspiranturasının məzunudur. SSRİ Elektron Sənaye Nazirliyinin Elmi-Tədqiqat "Fonon" İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi və riyazi modelləşdirmə şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

"Green Star International" şirkəti baş direktorunun elm və istehsalat üzrə müavini, Moskvanın Zelenoqrad şəhər Orta və Kiçik Biznes Müəssisələri Assosiasiyasının direktoru, Moskva Biznesi İdarəetmə Akademiyasında ali və tətbiqi riyaziyyat kafedrasının müdiri və professoru, İqtisadiyyat və menecment fakültəsinin dekanı, 1-ci prorektoru, Moskva "MİET" Milli Tədqiqat Universitetinin professoru, tədris işləri üzrə prorektor müavini, tədris prosesinin keyfiyyəti sahəsinin rəhbəri vəzifələrində çalışıb.

**– Ələddin müəllim, informasiya vasitələrində gedən məlumata görə, sentyabrın 9-dan 11-dək Bakıda Xaricdə yaşayan azərbaycanlı alimlərin 1-ci Forumu baş tutacaqdır. Bu tədbirə dəvət almış alim kimi bu haqda nə deyə bilərsiniz?**

– Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə baş tutan bu forum dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, onların təcrübə və bilik mübadiləsini təşkil etmək, alimlər arasında şəbəkələşməni yaratmaq, diaspor fəaliyyətinə töhfə verməklə Vətənlə əlaqələri möhkəmlətmək məqsədilə keçirilir. Forumda, həmçinin elm və texnologiya, texnika, energetika, təhsil, səhiyyə, iqlim dəyişikliyi və digər sosial elmlər və mədəniyyət sahələri ilə bağlı strateji planların hazırlanması və icrasında Azərbaycana kömək etmək, işğaldan azad olunmuş ərazilərin bərpası prosesinə töhfə vermək, təhsillə bağlı müxtəlif məzmunlu layihələr, proqramlar hazırlamaq, elmi işləri dəstəkləmək nəzərdə tutulur.

**– Siz 56 ildir ki, Vətəndən kənarda– Moskvada yaşayıb, elm və təhsil sahələrində məsul vəzifələrdə çalışmısınız. Sizin oraya təhsilinizi davam etməyə getməyiniz, uzun illər orada qalıb işləməyiniz haqqında qısa da olsa məlumat verməyinizi istərdik.**

– 1968-ci tədris ilinin sonları idi. Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin 3-cü kursunu bitirirdim. Məni dekanlığa dəvət edib, M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə köçürülmək üçün SSRİ Ali Təhsil Nazirliyindən universitetə 1 yer ayrıldığını və əlaçı tələbə kimi məni o yerə göndərmək barədə qərarlarını bildirdilər.

Moskva Dövlət Universitetinə köçürülməyim, orada tələbə və aspirant olduğum gənclik illəri həyatımda, ömür tariximdə silinməz izlər buraxmış, elmi-mədəni-siyasi dünyagörüşümün formalaşmasında xüsusi rol oynamışdır. Təsəvvür edin, hər altıncı gün universitetin teatr zalında, tamaşalarına bilet almaq çox çətin olan Böyük Teatrın opera və balet truppalarının universitet üzərində hamilik tamaşalarına baxmaq imkanımız vardı. Universitetin akt zalında dünyanın ən məşhur alimlərinin iştirakı ilə, elmin ən mübahisəli, eyni zamanda, aktual problemlərinə həsr olunmuş elmi diskussiyalar təşkil olunardı.

Elmin yeniliklərinə böyük maraq göstərən biz tələbə və aspirantlar bu nadir əhəmiyyətli elmi tədbirlərdə qabardılan fikirləri xüsusi "aclıqla" qəbul edərdik. Universitetin konsert zalında ölkənin ən məşhur elm və mədəniyyət xadimləri ilə təşkil olunan görüşlər çox maraqlı keçərdi. Bu görüşlərdə hər kəs mövzu ətrafında onu maraqlandıran sualları vermək imkanına malik idi. Bir qayda olaraq, bu görüşlərdə mən Azərbaycanla bağlı suallar verməyi sevərdim. Elmə xüsusi marağım, həllini gözləyən məsələlərlə məşğul olmaq həvəsi də məhz o illərdən yaranmış və həyatım boyu davam etmişdir. Orada aldığım fundamental elm və biliklər sonralar işlədiyim SSRİ Elektronika Nazirliyinin "Fonon" İnstitutunda ölkə təhlükəsizliyni təmin etməyə yönəlmiş texniki problemlərin həllində, Moskva Dövlət Biznesi İdarəetmə Akademiyasında kafedra müdiri, dekan, 1-ci prorektor, və "MİET" Milli Tədqiqat Universitetində təhsilin keyfiyyəti sahəsinin rəhbəri kimi təhsil poblemlərinin həllində mənə böyük stimul və istiqamət vermişdir.

**– Professor, sizin bu foruma dəvət olunmağınız elmi və ictimai fəaliyyətinizə verilən yüksək dəyərin təzahürüdür. Siz çoxsaylı elmi əsərlərin, ixtiraların müəllifi kimi, bir çoxunun mövzusunun və mahiyyətinin qapalılığını nəzərə alaraq, qısaca da olsa məlumat verərdiniz.**

– Hələ tələbə və aspirant ikən 1970-ci illərin ortalarından elektron sənayesi sahəsində çalışarkən, dünya okeanında və kosmosda, dəniz seysmik kəşfiyyatında, mikroelektronikada, müdafiə və tibb sənayesində istifadə olunan pyezoelektrik aparat və cihazların işlənib hazırlanmasında riyazi modellərin yaradılması ilə bağlı elmi problemlərlə məşğul olmuşam.

Uzun illər ərzində həllini tapmayan, dinamik rejimdə əvvəlcədən tələb olunan fiziki xüsusiyyətlərə cavab verən, minimum kütləyə və ya həcmə malik olan pyezoelektrik elementlərin optimal formasının müəyyən edilməsi probleminin ilk dəfə həllinə nail olmuşam. Bu problemin həlli dünya okeanında su altında hərəkət edən obyektlərin yerini və ayrı-ayrı xarakteristikalarını müəyyən etməyə, müvafiq elmi sahələrin mütəxəssislərini maraqlandıran informasiyaların kosmik obyektlərdən – süni peyklərdən və kosmik gəmilərdən qeydə alınıb, Uçuşları İdarəetmə Mərkəzinə ötürmək və qəbul etmək üçün qəbuledici-ötürücü qurğularının yaradılmasına imkan vermişdir. Hərbi texnikada istifadə olunan pyezoelektrik cihazların yaradılmasında vacib olan iki və üçölçülü dinamik məsələlərin həll metodunu da tələbələrimlə birgə ilk dəfə uğurla tətbiq etməyə nail olmuşam. Diskşəkilli pyezokeramik membranlarda "kənar effektinin" mövcudluğunu da nəzəri cəhətdən ilk dəfə mən açmışam.

Həmmüəlliflərimlə birgə hazırlanmış pyezokeramik ötürücü süni ürək yaratmaq probleminin həllində uğurla istifadə edilmişdir. 450-dən çox açıq və qapalı elmi əsərin, ixtiraların, monoqrafiyaların, ali təhsil dərsliklərinin, ali peşə təhsilinin təşkili problemlərinə və təhsil texnologiyalarına dair bir sıra elmi məqalələrin müəllifiyəm. Elmi rəhbərliyim altında 7 aspirant, o cümlədən 3 azərbaycanlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Ümumiyyətlə, əldə edilmiş elmi nəticələr əsasında 30 beynəlxalq və Ümumittifaq qurultay, konqres, konfrans və simpoziumlarda 60-dan çox, o cümlədən 12 sifarişli plenar elmi məruzə etmişəm.



**– Xaricdə yaşayan azərbaycanlı öz tarixi Vətənini layiqincə təmsil etmək üçün hansı xüsusiyyətlərə malik olmalıdır?**

– Tarixi Vətənimizdən kənarda yaşayan hər bir azərbaycanlı onun milli-mədəni-mənəvi dəyərlərinin daşıyıcısı kimi yaşadığı ölkədə öz məsuliyyətini daim düşünməli, yaddan çıxarmamalıdır. Ölkəmizə, xalqımıza münasibət hər birimizin oradakı peşəkar fəaliyyətimizdən, cəmiyyətdəki davranış mədəniyyətimizdən, dünyagörüşümüzdən alınan təəssüratlarla, Azərbaycanın, onun tarixini və mənəvi dəyərlərinin düzgün, layiqli təqdimatı, təbliği ilə formalaşır. Vətəndaşı olduğumuz ölkənin tarixini, mədəniyyətini, adət-ənənələrini, mövcud qanunlarını bilmək və onlara hörmətlə yanaşmaq da bu məsələdə mühüm rol oynayır. Əminəm, Azərbaycanın tarixini, mədəni-mənəvi dəyərlərini, adət-ənənələrini dərindən bilmədən onun yüksək səviyyədə layiqli təmsilçisi olmaq mümkün deyil! Bütün bunları biz, ilk növbədə, gənclərimizdə, ətrafımızda olan hər kəsdə tərbiyə etməliyik. Bu işdə Vətəndən uzaqlarda yaşayan biz ziyalıların üzərinə böyük məsuliyyət düşür! Ziyalı sözü, ana dilimizdə xalqına elm və bilik gətirən, onun "qaranlıqlarına nur saçan" insana şamil edilir!

**– Uzun müddət Moskvada yaşayıb– çalışdığınız dövrdə orada Azərbaycana aid keçirilən tədbirlərlə bağlı xatirələrinizi də eşitmək maraqlı olardı.**

– Keçən əsrin 60-cı illərinin sonlarından M.V. Lomonosov adına Moskva Dövlət Universiteti Moskvada təhsil alan azərbaycanlı tələbə və aspirantlar üçün əsl birləşdirici mədəniyyət mərkəzi idi. Həmin dövr, xüsusən də Azərbaycan KP MK-nın ovaxtkı 1-ci katibi, ümummilli lider Heydər Əliyevin 1973-cü ildə Moskvada Azərbaycanın daimi nümayəndəliyində tələbə və aspirantlarla olan ilk görüşündən sonra mədəniyyətimizin ən məhsuldar nümayişi dövrü idi. Buna biz yaradıcı ziyalılarımız – B.Vahabzadə, N.Xəzri, Qabil, M.Araz, T.Salahov, T.Nərimanbəyov, F.Əmirov, X.Mirzəzadə, M.Maqomayev və başqaları ilə keçirdiyimiz maraqlı görüşlərlə nail olmuşduq. Moskva Dövlət Universitetində əlamətdar tarixlərin qeyd olunmasını təşkil edən fəal tələbələr və aspirantlardan ibarət qrup yaratmışdıq. Universitetlərdə, məktəblərdə Azərbaycana, onun mədəniyyətinə, elminə həsr olunmuş gecələr keçirirdik.

Sonralar Moska ətrafında elektronika mərkəzi olan Zelenoqradda işləyərkən, ictimai əsaslarla mədəniyyət üzrə metodik şuranın sədri kimi rus, sovet mədəniyyətinin müxtəlif sahələrinə aid mövzularla yanaşı, Azərbaycan mədəniyyətinə həsr olunmuş tədbirlər keçirməyə nail olmuşdum. Zəmanəmizin görkəmli bəstəkarı Qara Qarayevin 60 illik yubiley gecəsində onun səhnədə nəhəng portretini, foyedə yaradıcılığına həsr olunmuş sərgini, musiqi nümunələrini, musiqisi ilə bağlı filmlərdən parçalar nümayiş etdirdik. Tədbirdən 1 gün əvvəl Q.Qarayevə Sosialist Əməyi Qəhrəmanı adı verilməsi qərarı isə gecədə onun haqqında söylənilən ən yüksək sözlərin təsdiqi idi. SSRI Rəssamlar İttifaqının 1-ci katibi, dünya şöhrətli rəssam Tahir Salahovun yaradıcılığına həsr olunmuş tədbir və onunla görüş Azərbaycan təsviri incəsənətinin qürurverici təntənəsinə çevrildi.

**– Ələddin müəllim, sizin xalqımızın iftixarı, dahi bəstəkar Üzeyir Hacıbəylinin şəxsiyyətinə və yaradıcılığına sonsuz sevginiz və ehtiramınız hamımıza məlumdur. Yəqin ki, bu cür tədbirlər sırasında Üzeyir bəyə həsr olunmuş tədbir də keçirmisiniz...**

– Əlbəttə, Üzeyir bəy Hacıbəyli Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, XX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Avropa bəstəkarlıq məktəbinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirərək musiqimizin bütün dünyada şöhrət qazanmasında əvəzsiz rol oynamışdır. Zənnimcə, Üzeyir Hacıbəylinin musiqimizdə ən mühüm, taleyüklü xidməti onun möhtəşəm musiqi əsərləri yaratması ilə yanaşı, uzaqgörən dahi bəstəkar, alim, siyasi xadim kimi musiqimizin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyən etməkdə, ilk növbədə, öz milli xalq musiqimizə, muğama və aşıq musiqisinə köklənməyi əsas tutmasındadır. Bəli, Üzeyir Hacıbəylinin yaradıcılığına həsr olunmuş və böyük uğurla baş tutmuş gecədə səslənən məlumatlar tədbirdə böyük canlanma yaratdı, dinləyicilər tərəfindən xüsusi marağa səbəb oldu.

Ümumiyyətlə, Üzeyir bəy Sovet İttifaqında yaxşı tanınan dahi bəstəkar idi. Onun hələ 1907-ci ildə yazdığı "Leyli və Məcnun" operasının təkcə ilk Azərbaycan operası deyil, həm də Şərqdə, o cümlədən bütün İslam aləmində ilk opera olması, SSRİ-nin ovaxtkı rəhbəri İosif Stalinin Üzeyir Hacıbəylinin musiqisini çox sevməsi, məşhur rus bəstəkarı, Leninqrad Konservatoriyasının rektoru Aleksandr Qlazunovun "Arşın mal alan"ı Rusiyanın "ilk operettası" adlandırması barədə səslənən faktlar tədbirdə xüsusi maraq doğurmuşdu.

Hollivudda erməni əsilli Maqalyanın eyniadlı film çəkdiyi və musiqinin müəllifinin isə özü olduğunu bildirilən məlumat isə dinləyicilərin ironiyalı gülüşünə səbəb olmuşdu. Bundan xəbər tutan Üzeyir Hacıbəyli etirazını "Arşın mal alan"ı çox sevən Stalinə ünvanlamışdı. Tezliklə bəstəkara Stalindən şəxsi teleqram gəlir: "Mən bizim, sovet, əsl "Arşın mal alan"ı çəkməyi təklif edirəm". 1945-ci ildə Azərbaycanda eyniadlı film çəkildi və Stalin mükafatına layiq görüldü. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə "Koroğlu" operasının Stalinin şəxsi göstərişi ilə Böyük Teatrda 3 dəfə tamaşaya qoyulması və Stalinin hər üç tamaşaya gəlməsi, onun "Koroğlu" operasını "ən gözəl sovet operası" adlandırması tədbirdə coşqu yaratdı. Üzeyir Hacıbəylinin sovet bəstəkarları arasında ilk dəfə SSRİ Xalq artisti adına layiq görülməsi dinləyicilər tərəfindən rəğbətlə qarşılandı. Bütün bu faktlar, məlumatlar dinləyicilər tərəfindən Azərbaycan mədəniyyətinin, Azərbaycan musiqi incəsənətinin ən yüksək səviyyəsi kimi qəbul edilirdi.

Moskva Dövlət Universitetində keçirilən digər tədbirlərdə də Azərbaycanla bağlı maraqlı, qürurverici məlumatlar səslənərdi. Məsələn, Rəsul Həmzətovla görüşdə görkəmli şair Azərbaycan poeziyasını yüksək qiymətləndirdi və Səməd Vurğunu öz müəllimi adlandırdı. Onun fikrincə, "Səməd Vurğun vasitəsilə Azərbaycan bir baş ucaya qalxıb." Azərbaycan musiqisi haqqında nə düşündüyünü soruşduqda, məşhur erməni bəstəkarı Aram Xaçaturyan Ü.Hacıbəylinin, Q.Qarayevin, F.Əmirovun və A.Məlikovun yaradıcılığı haqqında çox yüksək sözlər deyərək, öz əsərlərində, xüsusən də "Qayane" və "Spartak" baletlərində Azərbaycan xalq mahnı və rəqslərindən geniş istifadə etdiyini dilə gətirdi. Dedi ki, əslən naxçıvanlı olan anasının uşaqlıqda ona zümzümə etdiyi, oxuduğu xalq mahnıları ömürlük onun beyninə həkk olunub.

SSRİ-nin digər nüfuzlu mədəniyyət xadimlərindən Azərbaycan poeziyası və musiqisi barədə yüksək qiymətlər və etiraflar eşitmək çox qürurverici idi. Uzun illər işlədiyim Moskva Dövlət Biznesi İdarəetmə Akademiyasında rəqs şousu müsabiqələrində tələbələrim Azərbaycan rəqsləri ilə nömrələr hazırlayardılar. Yeni il, 8 Mart və digər bayram axşamlarında professor-müəllim heyəti isə bu tədbirlərin kulminasiya zirvəsini– Azərbaycan rəqslərinin səslənməsini səbirsizliklə gözləyərdilər. Bu anda məclis canlanar, xüsusi rəng alardı.

**– Qarabağın işğalı, itirilmiş torpaqlarımızın geri qaytarılması, Vətənimizin ərazi bütövlüyünün bərpa edilməsi ilə bağlı problemlərin həlli hər bir azərbaycanlını, o cümlədən xaricdə yaşayan soydaşlarımızı da səfərbər etmişdi. Hər kəs öz imkanı, bacarığı daxilində ümumi Qələbəyə öz töhfəsini verməyə çalışırdı.**

– Keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq, 30 il ərzində, xüsusən də 44 günlük Vətən müharibəsində biz də hər gün, hər an universitetlərin professor-müəllim heyəti arasında, digər auditoriyalarda aktiv fəaliyyət göstərir, Dağlıq Qarabağ problemi ilə bağlı həqiqətləri izah edir, onlara münaqişənin həqiqi səbəblərini, yaranma və inkişaf mərhələlərini izah edirdik. Biz bu münaqişədə Rusiyanın mövqeyini, əzəli torpaqlarımızda başqa ölkələrdə yaşayan ermənilərin yerləşdirilməsini, Azərbaycan türklərinin dəfələrlə Ermənistandan deportasiya olunmasını diqqətə çatdırdıq.

44 günlük müharibədə qazandığımız parlaq Qələbənin tariximiz üçün misilsiz əhəmiyyəti artıq milli şüurumuzda əbədi həkk olunub. Bu gün hər birimiz Qələbəmiz, müzəffər ordumuz, onun Ali Baş Komandanı, dərin, strateji düşüncəli, uzaqgörən, dünya səviyyəli siyasətçinin, Prezidentimiz İlham Əliyevin müdrikliyi və əzmkarlığı sayəsində başımızı dik tutaraq qürurla addımlamaqdan məmnunluq duyuruq! Allah bu Qələbə uğrunda canlarını qurban vermiş şəhidlərimizə rəhmət eləsin! Onların müqəddəs ruhu qarşısında baş əyirəm! Qərbi Azərbaycan İcmasının yaradılması, onun gündəlik fəaliyyəti, Qərbi Azərbaycana qayıdış proqramının uğurla həyata keçirilməsi qədim torpaqlarımız olan Göyçə mahalına, Zəngəzura, İrəvana, Dərələyəzə möhtərəm Prezidentimizin ifadə etdiyi kimi sülh yolu ilə qayıdacağımıza hər birimizin inamı böyükdür!

**– Moskvadakı diasporlarımızı birləşdirməyə, milli-mədəni dəyərlərimizi qoruyub saxlamağa, tanıtdırmağa, inkişaf etdirməyə məsuliyyət daşıyan Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin fəaliyyəti haqqında nə deyə bilərsiniz?**

– Təəssüflər olsun ki, son illər bu qurumun rəhbərliyinin fəaliyyətsizliyi, onun işinə biganə, laqeyd yanaşması nəticəsində təşkilat durğunluq dövrünü keçirirdi. Sevindirici haldır ki, təşkilatın 2 il əvvəl demokratik yolla seçilmiş yeni rəhbərliyi qısa müddət ərzində fəallıqla, Moskvada yaşayan ziyalılarla geniş məsləhətlər keçirərək düşünülmüş proqram, fəaliyyət strategiyası əsasında, ayrı-ayrı elm, təhsil, mədəniyyət ocaqlarında görülən tədbirlər vasitəsilə bu təşkilatın işinə yeni nəfəs verməyə, Azərbaycan diasporunun birliyinə, Rusiya ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərin davamlılığını təşviq etməyə və real münasibətlərə kömək etməyə nail olmuşdur. Bu vacib işdə "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti"nin rəhbəri, veteranlar və əlillər üçün bir çox nəcib işlər görmüş Bəxtiyar Həsənovun tükənməz enerjili rəhbər, təcrübəli sahibkar, xeyriyyəçi iş adamı kimi göstərdiyi səylər təqdirəlayiqdir.

*Müsahibəni apardı:*
***Araz YAQUBOĞLU,***
*tədqiqatçı-jurnalist*

# FHN-nin Qarabağ təlimləri

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti işğaldan azad edilmiş ərazilərdə yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində silsilə maarifləndirmə tədbirləri keçirib.**



Xidmət tərəfindən Laçın şəhərində yerləşən "Həkəri Riverside" hotelində, Xankəndi şəhərində fəaliyyət göstərən "Xanabad" və "Xarı Bülbül Keytring" restoranlarında, "Rahat market" şəbəkəsinin filialında, inşaat işləri aparılan 4 nömrəli tam orta məktəbində, həmçinin Ağdam şəhərində tikintisi davam etdirilən 160 yerlik körpələr evi-uşaq bağçasında yanğına qarşı maarifləndirmə tədbirləri keçirilib.

Tədbirlərdə açıq sahələrdə və qapalı məkanlarda yanğın təhlükəsizliyinə dair tələblər barədə söhbətlər aparılıb, həmçinin ərazilərin təmiz saxlanılması, ehtiyat çıxış yollarının daim istifadəyə yararlı, yanğına qarşı su təchizatı qurğularının isə işlək vəziyyətdə olmasının və ilkin yanğınsöndürmə vasitələri ilə təminatın zəruriliyi aidiyyəti şəxslərin diqqətinə çatdırılıb.

Tədbirlərdə ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani nümayiş etdirilib, suallar cavablandırılıb.

***XQ***

Mənsur Vəkilov – 85

# Milli ədəbiyyatımızın tərcümanı

**Unudulmaz şair, tərcüməçi, ssenarist, jurnalist, Əməkdar incəsənət xadimi Mənsur Vəkilov bu gün xoş xatirələrlə anılır. O, uzun illər Yazıçılar Birliyinin “Литературный Азербайджан” jurnalında çalışıb, ədəbi işçidən baş redaktorluğa yüksəlib. Ədəbiyyatımızın rus dilində təbliği kimi mühüm işin başında duranlardan biri də o, olub.**



Əslən Qazax rayonunun Yuxarı Salahlı kəndinin Vəkilovlar soyundan olan Mənsur Vəkilov 1939-cu ildə Bakıda ziyalı ailəsində dünyaya gəlib. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin bitirib. Beş dildə 9 poetik məcmuənin müəllifi, “Humay” beynəlxalq mükafatının laureatı, “A.S.Puşkin yubiley medalı”-nın sahibi idi. AYB-nin katibi kimi gərəkli fəaliyyəti ilə seçilirdi. Dostları onun ömrü boyu böyüklərin nəsihətini dinləməyi bacarmasını, gənc şairləri dəstəkləməsini xüsusi vurğulayırlar.

Çoxşaxəli nəsil şəcərəsinin şöhrətini artıran Mənsur Vəkilov ADR Parlamentinin üzvü, Azərbaycanda səhiyyənin ilk təşkilatçılarından biri olan Məmmədrza ağa Vəkilovun nəvəsi, Azərbaycan SSR səhiyyə naziri (1963–1970) olmuş Əməkdar həkim Fəxri Vəkilovun oğludur. Yeri gəlmişkən, bir əsr yarım əvvəl onların nəslində hərbçi, Krım muharibəsinin (1853–55-ci illər) qəhrəmanı kapitan Mənsur ağa Vəkilov da olub. Professor Satur Arayan özünün “Erməni xalqının tarixi taleyində Rusiyanın rolu” monoqrafiyasında onu oxuculara erməni “Martiros Vekilev” kimi təqdim edib. Tanınmış araşdırmaçı-publisisti, hərbi jurnalist Şəmistan Nəzirli buna qarşı ciddi arqumentlərlə təkzib verib.

Bizimlə söhbətində Şəmistan müəllim şair Mənsur Vəkilovun da haqqında ürəkdən gələn xoş sözlər söylədi:

– Mənsur olduqca bilikli və təvazökar bir şəxsiyyət idi. Rus dilini əla bilirdi, elə əsərlərinin də hamısını rusca yazıb. Mənim bir neçə hekayəmi ruscaya çevirərək jurnalda dərc etdirmişdi. Onunla Pitsunda kurortunda istirahətdə olanda şəxsiyyətinə daha yaxından bələd olmuşam. Mənsur, mən, Cəlal Bərgüşad və xanımı ... birlikdə dincəlirdik. Bir gün ... xanımın idarə etdiyi maşınla Soçiyə gedirdik. Yol polisi bizi saxladı. Mənsur maşından düşərək, onunla elə gözəl söhbət etdi, elə bir ziyalı səviyyəsi göstərdi ki, polis dərhal sənədləri qaytarıb, “Hara istəyirsiniz, arxayın gedin”, – dedi. Orada olarkən Mənsurun dilindən Səməd Vurğun haqqında yazdığı şeiri eşitdim. Dedim ki, böyük şairə həsr olunmuş 270 şeir yığmışam, sən də bunu tez tərcümə elətdir, hazırladığım topluya salım. Elə də etdi. Mənsurun yoldaşlığı, dostluğu da özünəməxsus idi. Şənlənməyi sevirdi, birgə fotoşəkillərimiz də var.

Mənsur Vəkilov öz Vətənində geniş oxucu kütləsi üçün müəyyən dərəcədə yad dildə – rusca yazıb, yaratsa da , öz dədə-baba yurdunun mənəvi örnəklərinə qırılmaz tellərlə bağlı, varislik duyğusunun güclü olduğu bir sənətkar idi. Ədəbi tənqid onun yaradıcılığı barədə yazırdı: o, sözün, sənətin qədrini bilən, şairlik adını uca tutan bir şəxsdir. Yazdıqları hay-küydən uzaq, təmkinli, həyalı poetik nümunədir. Xalq şairi Nəriman Həsənzadənin tərcümə etdiyi “Əziz diyarım” şeiri kimi.

**Od-alov beşiyim -**
**Azərbaycanım!**
**Bu odla, atəşlə yoğrulub mayam.**
**Ucalan o qaya bürcləri kimi**
**Mən də bu torpaqdan baş qaldırmışam.**

Azərbaycanın Xalq yazıçısı, mərhum Maqsud İbrahimbəyov şairin dostu haqqında deyib: “Tanıdığım ən parlaq insanlardan biri, bəlkə də onların ən yaxşısı Mənsur Vəkilov idi. Mənsur onu şəxsən tanımayanların xatirəsində istedadlı qələmindən çıxmış müdrik şeirləri ilə qalacaq. Mən isə ömrümün sonuna qədər Ulu Tanrıya şükür edəcəyəm ki, 40 ildən artıq bir müddətdə Mənsur mənim mehriban dostum olmuşdur. Bir dəfə ad günündə ona yazmışdım: “...Öz gözəl şeirlərinlə bundan sonra da insanları inandırmaqda davam et ki, gözəllik, nəciblik və zəka bu dünyanı yaxşılığa doğru dəyişə bilər”.

Gənc yaşlarından Mənsurun qələmindən çıxan nəzm nümunələri Ukrayna, gürcü, latış və digər xalqların dillərinə tərcümə olunub. Onun şeirlərini rus dilindən doğma dilimizə Səyavuş Məmmədzadə, Nəriman Həsənzadə, Fikrət Qoca, Əhəd Muxtar, Çingiz Əlioğlu tərcümə ediblər. Onlar Mənsurun iç dünyasına yaxından bələd olduqları üçün əsərlərini milli koloritdə dilimizə çeviriblər. “Ata şeiri buna gözəl nümunədir:

**Qalxıb gəzişdikcə mən bu otaqda**
**Fikrimdə dərələr, dağlar aşıram.**
**Ata deyən zaman oğlunam, ata,**
**Oğlumu öpəndə atalaşıram...**

Mənsur Vəkilov Azərbaycanın rusdilli şairlərinin müsabiqəsindən sonra nəşr olunmuş məcmuənin redaktoru olub. O, böyük tərcüməçilik fəaliyyətilə məşğul olmuş Səməd Vurğun, Hüseyn Arif, Vaqif Səmədoğlu, Əbülhəsən, Bəxtiyar Vahabzadə, Əli Kərim, Fikrət Qoca, Sabir Əhmədov, Vaqif Musa, Əkrəm Əylisli, Çingiz Əlioğlunun bir sıra əsərlərini rusdilli oxucular üçün dəyərli töhfə kimi təqdim edib.

...“Şərəf nişanı” ordenli şair Mənsur Vəkilov ədəbiyyatımızın, poeziyamızın şərəfini layiqincə qoruyub. 2009-cu ildə dünyasını dəyişib. Həmin il “Müxtəlif illərin və yüzilliklərin şeiri”) kitabı çapdan çıxıb.

*Əli NƏCƏFXANLI*
*XQ*

Səhnə irsimiz

# Hamlet üsyankarlığından Məcnun məsumluğuna

**Ən böyük aktyorlar oyun içindən oyun çıxaran, yeni bir oyun qura bilənlərdir. Eynilə unudulmaz aktyor, görkəmli rejissor, Xalq artisti mərhum Mehdi Məmmədov kimi...**



Mehdi müəllim, ilk növbədə, şahanə görkəmi, gözlərinin ifadəsi, səs tonu, yerişi ilə böyük sənətkar idi. İti fəhmi, duyumu vardı. Sinəsində çarpazlaşan qolları belə səhnəyə hökmdarlıq edirdi. Uca Yaradan ona sənətkar üçün lazım olan nüansları yetərincə bəxş etmişdi.

Mehdi Məmmədovun kitablarını, məqalələrini, müsahibələrini oxuduğumuz zaman tez-tez “estetika” sözündən istifadə etməsinə rast gəlmişik. Müsahibələrin birində ondan bu barədə soruşanda böyük rejissor cavab verib ki, teatr sənəti özü, bütövlükdə, estetikadır, estetika isə gözəllik deməkdir.

Həqiqətən də Mehdi Məmmədov gözəllik aşiqi idi. Elə həmin axtarışlar bir zaman Mehdi Məmmədovu Barat Şəkinskaya ilə qovuşdurub. Gəncə Teatrında Mehdi Məmmədov “Nizami” dramına quruluş verib, özü də Əbdək rolunu ifa edib, Barat xanım da Afaqı canlandırıb. Tamaşada qılınc səhnəsi varmış. Tərslikdən Barat xanım da solaxay idi, bu üzdən də lazımi səhnə alınmırmış. Rejissor mizanları dəyişsə də, aktrisa inadkarlıq edərək, həmin səhnəni olduğu kimi oynayıb. M.Məmmədov axırda ona “afərin” deyib və könlünü açıb...

Mehdi Məmmədov səhnədə, ekran qarşısında hər zaman düşünürdü, peşəkar şəkildə həyat və ona aid olan bütün məsələlərə məşğul olurdu. Özü bu barədə belə deyirdi: “İnsan, ümumiyyətlə, fəlsəfəyə meyillidir. Fəlsəfə həyatın dərin idrakı deməkdir. Rejissor dərin düşünürsə, elə o da filosofdur”.

Ancaq qarşısına filosof görünmək kimi bir məqsəd qoymamışdı. Bununla belə, hər mövzunu filosof kimi həll edirdi, seçəcəyi pyesi, mizanları, aktyorları. Bu filosofluq ədaları idi ki, rejissora imkan vermirdi hər əsəri səhnəyə gətirsin. Özünün dediyi kimi, tamaşaya qoyacağı pyes onun daxili dünyası ilə səsləşməli idi. Rejissor ictimai-siyasi hadisələrə, əxlaq dünyasının geniş təhlilinə yer verilmiş, həmçinin mükəmməl, aydın məqsədli xarakterlərin zəngin oldugu pyeslərə müraciət edirdi. Çünki Mehdi Məmmədov teatra məktəb kimi yanaşırdı. Bilirdi ki, teatr insanın düşüncəsinə, qəlbinə estetik cəhətdən təsir göstərir. Tamaşaçılara yüksək bədii emosional hisslər aşılayır. Bu qayədə M.Məmmədov Cəfər Cabbarlıya, Mirzə İbrahimova, Mirzə Cəlilə müraciət edib. O səbəbdən, rejissorun axtardıgı novotorluq, orjinallıq bu dramaturqların yaradıcılığının başlıca cəhətini müəyyən edirdi.

Yaradıcılığının püxtə dövründə rejissor daha çox onu düşündürən problemlərə, fikirlərinə uyğun əsərlər axtarırdı. Bu xüsusda “İblis”i, “Dəli yığıncağı”nı səhnəyə gətirib. Rejissor “Dəli yıgıncagı”nı bədii bütövlüyünə, müasir fikir dərinliyinə görə daha üstün hesab edirdi.

Onun sənət düşüncələri, sənətə baxışı sosializm realizmi tabularıyla cilovlanmamışdı. Daha çox bəşəri, daha çox dünyəvi baxışlar civarında cövlan edirdi. Təpədən-dırnağa səhnə adamı, səhnə hadisəsiydi. Böyük sənətin bir çox sahələrini yaradıcılığında birləşdirmişdi. O, Azərbaycan incəsənət pedaqogikasının ustadlarından biri idi.

Bəlkə də tale Mehdi Məmmədovun yolunu teatrdan salmışdır ki, öz fikirlərini böyük kütlələrə çatdıra bilsin. Bu məqsədlə o, tamaşalarında pauza və alt mətndən istifadə edirdi. Rejissor istəyirdi ki, alt mətn tamaşaçı beyninə kodlaşdırılsın. Bunun üçün isə pauzadan daha effektli vasitə ola bilməzdi.

Mehdi Məmmədovun bənzərsiz yaradıcılığı, şəxsiyyəti doğulub boya-başa çatdığı Şuşa əzəmətini, Şuşa əlçatmazlığını özündə ehtiva edirdi. Bu səciyyəni sonacan hifz etdi, qorudu. Elə yaddaşlarda da o cür – təbiətin əbədi, monumental hadisəsi kimi qaldı. Hamlet üsyankarlığını, Məcnun vurğunluğunu bir arada yaşadı, yaşatdı...

*Aynur HİLALİ*

# Musiqili səhnənin istedadlı rejissoru

**“Zaman çox şeyi dəyişsə də, səhnənin tələbi olduğu kimi qalır: aktyor peşəkarlığı, obraz seçimi, tərtibat və dinamika. Teatr sənətində bütövlüyü bunlar yaradır”.**

40 ildən çoxdur Akademik Opera və Balet Teatrında çalışan Əməkdar incəsənət xadimi Hafiz Quliyev söhbətə belə başladı. Yaradıcılığı ilə insani keyfiyyətləri üst-üstə düşən sənətkar teatrda baş rejissor olmaqla yanaşı, həm də pedaqoji fəaliyyətlə məşğul olur. Bu günlərdə Hafiz müəllimlə növbəti görüşümüzdə rejissor səhnə əsərlərinə quruluş verilməsi və təqdimata hazırlıq barədə suallarımızı cavablandırdı.



O bildirdi ki, rejissora tərtibat üçün hər hansı bir əsər veriləndə, o, araşdırma aparır. Hər bir rejissorun özünün gizlin ssenarisi və qeydləri olur. Rejissor əsər barədə düşündükcə, onun təxəyyülündə müəyyən fikirlər, fantaziyalar yaranır. O, quruluşa tam hazır olduqdan, onu bütöv obraz kimi görə bildikdən sonra rollar aktyorlara paylanır. Sonra stolarxası iş, obrazların aydınlaşması, musiqi dərsləri, səhnə mizanlaşması və digər proseslərə start verilir.

Hazırlama prosesi əsərin özündən və rejissorun ona nə qədər vaxt sərf etməsindən asılıdır. Elə rejissor var bir il çalışır, eləsi də var bir ay. Bu, əsərin özündən və qoyulan vaxtdan da asılıdır. Əgər özüm bu əsərə hazıramsa, deməк, tamaşa da hazırdır. Burada yalnız texniki problemlər ola bilər. Yəni rejissor düşündüyünü həyata keçirmək istəyəndə aktyorla fikri üst-üstə düşməyə bilər. Rejissorun məharəti də budur ki, belə vəziyyətlərdə uzlaşma yarada bilsin.

**Söhbətin davamında Hafiz müəllimdən soruşduq:**

**– Teatrın səhnəsində “Arşın mal alan”, “Leyli və Məcnun”, “Aşıq Qərib”, “Sevil”, “Koroğlu” və digər səhnə əsərlərinə müxtəlif rejissorlar quruluş veriblər. Onlar bir-birindən necə seçilir? Bu səhnə əsərlərinin yazıldığı gündən repertuara daxil edildiyini söyləyən rejissor bildirdi:**

– “Leyli və Məcnun” opreasına maraq çox olduğundan ona quruluş verən rejissorlar da az olmayıb. Səhnə tərtibatı da fərqli olub. Füzuli və Üzeyir dahiliyi bu əsərdə bir yerdə qərarlaşır. Bütün rejissorlar bu tamaşaya quruluş verəndə Füzuli süjeti ilə Üzeyir musiqisini qovuşdurmağa çalışıb. Zamanın özünün də tələbləri var. Məsələn, 1932-ci ildə “Aşıq Qərib” səhnədə 4 saat gedirdi, bu gün isə onu tamaşaçıya elə çatdırırıq ki, o yorulmasın. Yəni bu günün dinamikası, estetikası insanların zövqü ilə uyğunlaşdırılır.

**Hafiz Quliyev bu günədək bir neçə xarici ölkədə keçirilimiş festival və beynəlxalq tədbirlərdə iştirak edib. O, məşhur sənət ocaqlarının dəvəti ilə tamaşalara quruluş verib. Sənətkar Türkiyə, Rusiya, Çin, Belarus, Bolqarıstan, Çexiya, Özbəkistan, Dağıstan kimi ölkələrə yaradıcılıq ezamiyyətlərindən söz açaraq dedi:**

–İki dəfə Ankarada, bir dəfə isə Samsunda “Arşın mal alan” operettasını səhnələşdirmişəm. İstanbulda isə çoxlu qastrollarda olmuşam. Belarusda, Çin və Tacikistanda da tamaşalar qoymuşam. 50–60 günə bir tamaşa hazırlamışam. Hər ölkənin teatrı fərqlidir. Belarus teatrı bizim məktəbə yaxındır. Türkiyə teatrı bizdən fərqlidir. Çin məktəbi isə tamam başqadır. Rejissor yerli psixologiyanı da bilməlidir. Rejissor çalışdığı ölkənin aktyorlarının ümumi psixologiyasını, teatrın estetikasını da özü üçün aydınlaşdırmalıdır.

2003-cü ildə Ankarada “Arşın mal alan” operettasını fərqli quruluşda səhnəyə qoymuşam. Əsər böyük sevgi ilə qarşılandı, uzun müddət repertuarda qaldı. Bu əsəri Belarusda da səhnəyə qoymuşam. Orada da nümayişi uğurlu alınıb. Artıq yeddinci ildir ki, “Arşın mal alan” Belarus Akademik Musiqili Teatrının repertuarında yer alır.

“Arşın mal alan” 1956-cı ildə Çində ilk dəfə səhnəyə qoyulub. 2011-ci ildə məni Pekinə dəvət etdilər ki, bu əsəri yenidən səhnələşdirim. Biz hər gün 8 saat məşq edirdik, aktyorlar əlavə 3 saat da qalırdılar. Onlar bildirirdilər ki, sizin məktəb bizim xoşumuza gəlir. Tamaşaya baxmaq üçün Çinin mədəniyyət nazirinin müavini də gəlmişdi. O, tamaşadan sonra dedi: “Bizim dövrün gəncliyi “Arşın mal alan”ı çox sevirdi. İstəyirik ki, indiki gənclərimiz də bu əsərdən zövq alsınlar”.

**Sonra rejissor tamaşaçı məmnunluğunun və sənət əlaqələrinin önəmini vurğuladı:**

– Hər bir sənət ocağı üçün tamaşaçı məmnunluğu onun repertuarından asılıdır. Opera və Balet Teatrının da öz repertuarı və tamaşaçısı var. Səhnə əsərlərinin keyfiyyətli olmasına önəm veririk. Truppamız tamaşaları öz aktyorları ilə nümayiş etdirir. Biz dünyanın məşhur sənət ocaqları ilə də təcrübə mübadiləsi aparırıq. Məşhur sənət adamlarını çağırırıq və bizdən də həmin sənət ocaqlarına dəvət olur. Bu gün teatrımızda gənc istedadlar çalışır. Onlar xarici festivallarda ölkəmizi uğurla təmsil edirlər. Tamaşaçı sarıdan heç bir korluğumuz yoxdur. Elə olur ki, tamaşaya 3 gün qalmış bilet tapılmır.

**Hafiz müəllimin dərs dediyi Mədəniyyət və İncəsənət Universitetində istedadlı gənc rejissor və aktyorlar yetişir. Onlara daim dəstək olduğunu söyləyən rejissor bildirdi:**

– Müəllim kimi tələbələrimə dəstək göstərməyi özümə borc bilirəm. Mənim qrupuma qəbul olan tələbələrin səviyyəsi yüksəkdir. Tələbələrimə hər şeydən öncə bir şəxsiyyət kimi yanaşıram. Onların hamısı dahi rejissor ola bilməz. Elə istedadlı gənclərimiz var ki, onların səhnələşdirdiyi əsərlərə baxdıqda adam heyrətlənməyə bilmir.

Sonda sənət ocağının 116-cı mövsümə necə hazırlaşdığı ilə maraqlandıq. Rejissor söylədi ki, ənənəyə uyğun olaraq, teatr hər il mövsümü görkəmli bəstəkar Üzeyir Hacıbəylinin əsərlərindən biri ilə açır. Mövsüm 18 Sentyabr Üzeyir Musiqi Günündə dahi bəstəkarın “Arşı mal alan” operettası ilə açılacaq. Ən önəmlisi odur ki, “Leyli və Məcnun” operası ilk dəfə sentyabrın 21-də dahi bəstəkarın doğulduğu Şuşada tamaşaçılara təqdim olunacaq.

Bu il teatrın repertuarının zəngin olduğunu söyləyən Hafiz Quliyev bildirdi ki, bəstəkar Şəfiqə Axundovanın “Gəlin qayası” operası yenidən səhnəyə qaytarılacaq.

*Ceyhun ALIŞLI*
*XQ*

# “İblis” Sankt-Peterburqda



**Rusiyanın şimal paytaxtı Sankt-Peterburqun Aleksandrinski Teatrında Azərbaycan Akademik Milli Dram Teatrının yaradıcı heyətinin hazırladığı “İblis və...” tamaşasının ilk təqdimatı olub.**

Nümayişdən əvvəl hər iki teatrın rəhbərliyinin iştirakı ilə keçirilən mətbuat konfransında Aleksandrinski Teatrının prezidenti Valeri Fokin, direktoru Aleksandr Maliç, bədii rəhbəri Nikita Kobelev, Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə və direktoru İlham Əsgərov məşhur səhnə əsərini yüksək qiymətləndirib, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıblar.

Sonra tamaşa başlanıb. Sankt-Peterbuqlu tamaşaçılar səhnə əsərini alqışlayıblar. Aktyorların məharətli çıxışı tamaşanı daha baxımlı edib, səhnə əsəri maraqla qarşılanıb.

**Milli Dram Teatrının mətbuat katibi Cavid Zeynallı qastrol barədə məlumat verərək dedi:**

– Səhnə əsərinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, geyim üzrə rəssamı Vüsal Rəhim, işıqçısı Rafael Həsənov, bəstəkarı Azər Hacıəsgərli, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Azər Turan, rejissor assistentləri Nərmin Həsənova və Ceyran Başarandır.

Hüseyn Cavidin “İblis” faciəsinin motivləri əsasında hazırlanan tamaşanın janrı fəlsəfi dekonstruktiv-metadramdır. Qərbdə də, Şərqdə də çox araşdırılan, diqqət çəkən İblis mövzusu Hüseyn Cavid yaradıcılığında Tanrı konsepsiyası ilə özünəməxsus çalarda həll edilib. Hüseyn Cavid İnsan, İblis, Tanrı konsepsiyasını özünəməxsus formada ortaya qoyur. Onun bu baxışı yaradıcılığının böyük, daxili qüvvəsi və mahiyyətidir. 4 pərdəli faciədə ruhunu Şeytana satan insanların aqibəti təsvir olunur. Tamaşa oktyabrın 4, 5 və 6-da Milli Dram Teatrının səhnəsində də göstəriləcək.

Qeyd edək ki, səhnə əsərində Xalq artisti Kazım Abdullayev, Əməkdar artistlər Ayşad Məmmədov, Anar Heybətov, Elnar Qarayev, Vəfa Rzayeva, Elşən Cəbrayılov, aktyorlar Ziya Ağa, Elsevər Rəhimov, aktyor Elçin Əfəndi və digərləri iştirak edirlər.

*Ceyhun BALABƏY*
*XQ*

# ABŞ Tayvanı qorumağa hazırdır

**ABŞ-nin Tayvandakı qeyri-rəsmi səfiri Raymond Qrin bildirib ki, Vaşinqtonun adanı müdafiə etmək öhdəliyi prinsipialdır və ikitərəfli dəstəyə malikdir. Amerika Çinin təhdidlərinə qarşı Tayvana kömək etmək vədinə əməl edəcək. Qrin əlavə edib ki, "Tayvan və gəmilərin Tayvan boğazından maneəsiz keçməsi Vaşinqton üçün prioritetdir". Lakin bu şərh bu yaxınlarda Pekində səfərdə olan ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivanın sözləri ilə ziddiyyət təşkil edir. Çin Prezidenti Si Cinpinlə görüşdə cənab Blinken bildirmişdi ki, Vaşinqton Pekin ilə münasibətləri sabitləşdirmək istəyir.**



AP agentliyi yazır ki, Raymond Qrin tərəfindən belə bir bəyanatın verilməsinin hüquqi əsası var. Bu, Amerikanın Tayvana davamlı dəstəyini təmin edən 1979-cu il ABŞ qanunudur. Qanun Vaşinqtonun Taypeylə diplomatik əlaqələri kəsdiyi və Pekinlə əlaqələr qurduğu bir vaxtda qəbul edilib. Lakin Pekin rəsmi olaraq bu qanuna məhəl qoymur. Adanı separatçı əyalət hesab edən Pekin öz qanunvericiliyini hazırlayaraq təsdiqləyib. Həmin sənədlər Tayvanın materikə, o cümlədən güc tətbiqi yolu ilə birləşdirilməsini nəzərdə tutur. O vaxtdan bəri vəziyyət çox dəyişib. Ukraynada və Yaxın Şərqdə münaqişələr yaranıb. ABŞ və müttəfiqləri Ukrayna və İsrailə silah verir.

Maraqlıdır, Raymond Qrinin bu fonda dedikləri nəyə hesablanıb? Axı Ceyk Sallivan bu yaxınlarda Çin Xalq Respublikasının sədri Si Cinpin, xarici işlər naziri Vanq İ və Mərkəzi Hərbi Şuranın sədr müavini Çjan Yus ilə görüşmüş və bundan sonra iki dövlətin hərbi idarələri arasında əlaqələrin qurulmasında mühüm irəliləyişin əldə olunduğu bildirilmişdi. Doğrudur, Çin Müdafiə Nazirliyi bu görüşlərlə bağlı belə şərh vermişdi ki, Pekin Birləşmiş Ştatlardan Tayvanla sövdələşməyə son qoymağı, Tayvanı silahlandırmağı dayandırmağı və Tayvan haqqında yalan məlumatlar yaymağı dayandırmağı tələb edir". Buradan aydın olur ki, Tayvan məsələsində ABŞ və Çin arasında heç bir kompromis gözləməyə dəyməz.

Lakin Çin–ABŞ münasibətlərində Tayvandan başqa digər problemlər də var.



Xüsusilə, ticarət-iqtisadi əlaqələrdə fikir ayrılıqları qalır. Çin və ABŞ arasında ticarət keçən il 12 faiz azalaraq 607 milyard dollara düşüb. Hər iki ölkədə də yaxşı anlayırlar ki, ticarət dövriyyəsi azalarsa, bu, vətəndaşlara mənfi təsir göstərəcək. Məsələn, amerikalılar Çin məhsullarının bahalaşdığını hiss edəcəklər. Çində də eyni hal baş verəcək. ABŞ ilə ticarətin həcmi azalarsa, sanksiyalara baxmayaraq, Amerika texnologiyalarından istifadə etməyə davam edən daha böyük dövlət və özəl firmalar da əziyyət çəkəcəklər.

Asiya Cəmiyyəti Siyasəti İnstitutunun vitse-prezidenti Denni Rassel deyir ki, ÇXR sədri Si Cinpinin Ceyk Sallivan ilə görüşməyə razılıq verməsi əhəmiyyətlidir. Axı Çin rəhbərliyi milli təhlükəsizlik üzrə köməkçisini ABŞ Prezidentinin birbaşa ünsiyyətçisi hesab edir. Deməli, cənab Cinpin Prezident Cozef Baydenin fikirlərini eşitmək üçün C.Sallivan ilə görüşmüşdü.

Bununla yanaşı, Vaşinqton 2022-ci ilin avqustunda ABŞ Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosinin Tayvana səfəri zamanı buraxılmış səhvi düzəltməyə çalışır. Çin bu səfərə adaya uçan hərbi təyyarələr və dəniz manevrləri ilə cavab vermişdi. Bu güc nümayişi Pekinin amerikalılarla hərbi əlaqələri davam etdirməkdən imtinası ilə yekunlaşmışdı. Hərbi danışıqlar yalnız Co Bayden və Si Cinpin ötən ilin noyabrında San-Fransiskoda görüşdükdən sonra bərpa olunmuşdu. R.Qrin son bəyanatından belə görünür ki, Tayvan problemi ABŞ və Çin arasında münasibətlərə mənfi təsir göstərməkdə davam edəcək.

***S.ELAY***
***XQ***

# Rusiya İrana qaz nəqlini artıracaq

**Şərqi və Mərkəzi Asiyaya tədarük edilən Rusiya qazının həcminin artması Ukrayna münaqişəsinin gərginləşməsi ilə birbaşa bağlı deyil. Bu barədə Rusiya Prezidenti Vladimir Putin bildirib. Dövlət başçısı Vladivostokda Şərq İqtisadi Forumunun plenar iclasında çıxış edərkən deyib ki, Rusiya Çinə qaz tədarükünü artırır. Bu göstərici yanvar–avqust aylarında 37 faiz təşkil edib. Putin deyib: "Üstəlik, Rusiya şirkətləri İran və Mərkəzi Asiya ölkələrinə də yanacaq ixracını artırır. Mən aydınlaşdırmaq istəyirəm ki, bu, Ukrayna hadisələri ilə birbaşa əlaqəli deyil. Sadəcə olaraq, onların iqtisadiyyatı sürətlə inkişaf edir, özü də aktiv şəkildə inkişaf edir və əlavə resurslar tələb edir".**



Putin misal olaraq Özbəkistanı göstərib. Onun sözlərinə görə, bu ölkənin əhalisi hər il 1 milyon nəfər artır. Hazırda Özbəkistanın əhalisi 37 milyonu keçib. "Eyni zamanda, iqtisadiyyatı da böyüyür. Təbii ki, respublika əlavə resurslar tələb edir... Bizim isə belə resurslarımız var".

Rusiya Prezidenti daha sonra deyib: "İran uzun müddətdir bizdən qaz təchizatı istəyir. Bu, bizim üçün çox əlverişlidir, yataq yaxınlıqdadır. Güman edirəm ki, tamamilə həyata keçirilə bilən layihədir. Bazarlar çox böyükdür. İranla qonşu ölkələrdə də qaza böyük ehtiyac var".

O qeyd edib ki, İran Rusiya qazının ixrac həcmini bərpa etmək və artırmaq üçün perspektivli istiqamətlərdən biridir. "Biz təbii qazın həcmini tədricən bərpa edəcəyik və öz iqtisadiyyatımızı da inkişaf etdirəcəyik. Bunun üçün imkanlar var. Müxtəlif bazarları nəzərdən keçirəcəyik, təbii qaz mübadilələri üzərində işləyəcəyik, onu mayeləşdirəcəyik".

İranın özü də təbii qazla zəngin yataqlara sahibdir. Hər il ölkədə 260 milyard kubmetr qaz hasil edilir. Bunun da 18 milyard kubmetri ixraca yönəldilir. Buna baxmayaraq 2023-cü ilin sonunda İranda gündəlik yanacaq çatışmazlığı 250 milyon kubmetrə çatıb. 2024-cü ildə gündəlik 300 milyon kubmetr kəsir gözlənilir.

Səbəb isə İranda qazın hasili və nəqli zamanı itkilərin həddindən çox olmasıdır. Bu səbəbdən ölkədə yanacaq qıtlığı yaranır. Xüsusilə, İranın şimal regionlarında yanacağa tələbat hər il artır. İqtisadçı ekspert Aleksey İvanov deyib: "İranın əhalisi təxminən 89 milyon nəfərdir. Bu ölkənin daxili bazarında alternativ enerji mənbələrinin məhdudluğuna görə, qaz istehlakı dünyada ən yüksək göstəricilərdən biridir. İslam respublikasının enerji istehlakının 68 faizi qazdan asılıdır. Hər il təxminən 25 milyard kubmetr qaz hasilat və nəqli mərhələsində itirilir".

Tehran bu problemi həll etmək üçün Rusiyadan yanacaq almağa üstünlük verir. Üstəlik, Moskvanın təklif etdiyi qaz ucuzdursa, bu, daha cəlbedici görünür. Rusiyalı ekspert İqor Lipsiç bununla bağlı bildirib ki, İran üçün qazın hər min kubmetri 100 dollara təklif olunur: "Bu həddindən aşağı qiymətdir. Gömrük tarifləri və nəql xərclərini nəzərə alsaq Moskvanın gəlirləri minimum olacaq. Rusiya bu yolla sanksiyalardan yan keçmək istəyir".

...Artıq bu ilin iyununda "Qazprom" şirkəti ilə İran Milli Neft Şirkəti (NIGC) arasında Rusiya qazının İrana tədarükünün təşkili üzrə memorandum imzalanıb. İmzalanmış sənədə əsasən Rusiya qazının İrana tədarük həcmi gündəlik 300 milyon kubmetr təşkil edəcək. Bu, ildə 109 milyard kubmetr deməkdir. Bu barədə İranın neft naziri Cavad Ouci danışıb. Onun sözlərinə görə, sazişə əsasən, böyük həcmdə Rusiya qazı daxili istehlak üçün İrana və qonşu ölkələrə tədarük ediləcək, qaz kəmərinin çəkilişi xərclərini isə Rusiya öz üzərinə götürəcək.

Nazir sənədi "iqtisadi inqilab üçün ilkin şərtlər yaradan və regionun enerji təhlükəsizliyini təmin edən enerji diplomatiyasının şah əsəri" adlandırıb. Ouci qeyd edib ki, söhbət ölkənin şimalından cənubuna qaz kəmərinin çəkilməsindən gedir: "Qazprom"la 40 milyard dollarlıq ortaq layihələr müəyyənləşib. Danışıqlar başa çatmaq üzrədir və tezliklə bu layihə həyata keçirilmə mərhələsinə qədəm qoyacaq". İran tərəfi dəfələrlə bəyan edib ki, Rusiyadan İrana qaz nəqli Azərbaycan ərazisi vasitəsilə həyata keçiriləcək. Layihələrdə söhbət yalnız İrana qaz tədarükündən getmir. Həm də İran ərazilərindəki birgə yanacaq layihələrindən və qaz ixracından gedir. Hazırda Rusiya İranda 5 yatağa investisiya yatırıb. Bu barədə İranın Rusiyadakı səfiri Kazem Cəlali məlumat verib: "Bilirsiniz ki, artıq Rusiyanın investisiya yatırdığı və işlədiyi beş yataq var. Təbii qazla bağlı deyə bilərəm ki, İranın cənubunda iki yataq var və biz Rusiya ilə işləməkdə maraqlıyıq".

K.Cəlalinin sözlərinə görə, İran "Lukoyl" şirkətinin daha fəal işləməsinə hazırdır: "Biz həmişə "Lukoyl" şirkətinə bildirmişik ki, onların investisiyalarını qəbul etməyə hazırıq. Davamlı olaraq şirkətin baş direktoru ilə danışıqlar aparırıq".

Rusiyadan nəql olunan qazın bir hissəsinin isə xarici bazara çıxarılması nəzərdə tutulur. Bununla bağlı İran, Rusiya, Türkmənistan və Qətərlə birlikdə ölkənin cənubunda qaz qovşağı yaratmaq niyyətindədir.

Beləliklə, Rusiya qazının İrana tədarükündən Azərbaycan tərəfi də qazanclı çıxacaq. Ölkəmizin tranzit gəlirləri artacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## Şəhər və biz

# Küçələr də insanlar kimidir...



**Heç yaşadığınız şəhərin mürgülü çağında onun ürək döyüntülərinə qulaq asdınızmı? Bu narahat məkanın sevinci, ağrıları və qayğıları barədə düşündünüzmü? Həmin anlarda qəlbinizdə hansı duyğular baş qaldırırdı?**

Dünən illərlə yaşadığım məhəllə ilə görüşə getmişdim. Bu gün də orada yaşayan dost-tanışla xoş-beş eləməzdən əvvəl küçəmizi xeyli gəzdim, binalara, ağaclara, səkilərə baxdım. Sonra binamızın arxasında daş-kəsəkli torpağı çətinliklə təmizləyib əkdiyim ağaclarla söhbətləşdim.

Mənə elə gəldi ki, mənim kimi o ağaclar da bu görüş üçün qəribsəmişdilər. Tut ağacları üçüncü mərtəbəni də geridə qoyublar. Yasəmənlər böyüyüb, pardaxlanıb, salxım söyüdlər bir az da həzinləşiblər...

Pəncərəmizlə üzbəüz qocaman ağacın bir budağı quruyub. Bir vaxtlar mən bürkülü yay gecələrində, yaxud alatoranda onları suvarır, elə ağaclar kimi rahatlanırdım. Həmin saatlarda bu şəhərin mürgülü, bir az həzin anlarını seyr etməkdən yorulmurdum.

Bəzən mənə elə gəlirdi ki, şəhər çox yorulub, küçələr gündüzün səs-küyündən, maşınların təkərləri altında qalmaqdan usanıb, bezib. Binaların divarları getdikcə aşınan qayaya çevrilib. Küçələrin asfalt örtüyü yamaqlı şalvara dönüb...

Nədənsə, dünən mən özümü doğma küçəmizdə bir az qərib kimi hiss etdim. Necə ki, insan illərlə doğmalarından ayrı yaşayır və haçansa qovuşanda onlara uyuşa bilmir, soyuq olur, bax eləcə... Neyləmək olar, alın yazısından qaçmaq olmur. O yazını isə alın sahibi yox, Yazan bilir. Uca Rəbbimizə şükürlər olsun, yazan da odur, pozan da...

Hə, sübh çağı sənə elə gəlir ki, günboyu kəsilmək bilməyən hay-haraydan, qaçhaqaçdan, bir-birinin ardınca verilən siqnallardan bezən küçə tezliklə oyanmaz. Amma sozalan küçə işıqları, alabəzək vitrin reklamları, donaraq dayanmış manikenlər, küçənin hansı tinindənsə ötüb keçən itlər, deyinə-deyinə mağazaların qarşısında qalaqlanmış zibilləri yığışdıran süpürgəçi, arabir metroya tələsən adamların ayaq səsləri bu binalarda yatanlara sanki yeni günün başlandığı mesajını verir: "Oyanın!"

Sonra paralel olan küçəni gəzdim. Hər şey göz oxşayırdı. Kimin adını daşımasından asılı olmayaraq mən özlüyümdə bu məkana "Xoşbəxt küçə" adı vermişəm. İllərlə şəkillənən, boy atan, dəyişən küçələr sanki bir insan ömrü yaşayır. Bina-bina, məhəllə-məhəllə ərsəyə gələn küçələrin də xoşbəxti, kimsəsizi, unudulanı var. Bəlkə bu da bir tale işidi.

Bir də görürsən ki, bir küçənin asfalt örtüyü tez-tez dəyişdirilir, kənarına növbənöv ağac, gül kolları əkilir, hər gün başdan-başa suvarılır, yanlarına müasir, bahalı elektrik dirəkləri basdırılır, bayramlarda plakat və şüarlarla bəzədilir. Bu küçələr elə bil təmtəraq üçün salınıblar. Yüksək vəzifəli şəxslər, qonaqlar da buradan keçib gedirlər. Hələ siqnal səsində gəlin aparan maşınları demirik...

Amma bir tin o yana, ona paralel olan, hərəkətin ağırlığını sinəsində daşıyan başqa bir küçə isə toz-torpağın içində itib-batır, zibili vaxtında daşınmır, çirkab sular küçə boyu saatlarla axıb gedir. Suya həsrət ağacların bir hissəsi quruyur. İllərlə yenilənməyən asfalt örtüyü çox geyilmiş ayaqqabının altı kimi aşınır.

Sanki, bu küçənin gözəlliyi nəinki şəhər rəhbərliyini, heç sakinlərini də o qədər maraqlandırmır. Bu küçə kimsəsiz, kasıb insanlar kimidir. Demək, küçələr də bir az insanlara bənzəyir.

İnsanı sentimentallaşdıran, içini təmizləyən, ilkinliyə çəkən sübh çağında adam həm təəssüf hissi keçirir, həm də düşüncələrə dalır. Az sonra küçənin sozalan işıqları Günəşin şüaları fonunda itib-batır...

Siz də hərdən yaşadığınız şəhərin mürgülü çağlarında onun ürək döyüntülərinə qulaq asın, çox şey qazanacaqsınız.

***Səməd MƏLİKZADƏ,***
***yazıçı-publisist***

# Şuşada ilk toy mərasimi



**Şuşada 32 ildən sonra ilk dəfə toy mərasimi keçirilib.**

44 günlük Vətən müharibəsi veteranı Elmir Məmmədlinin toy mərasimi "İsa bulağı" istirahət kompleksində təşkil olunub. Toy məclisində gənclərin ailə üzvləri, qohum-əqrəbaları, Şuşa sakinləri və rəsmi şəxslər iştirak ediblər.

Bəyin atası Elman Məmmədov bu xoş gündə təəssüratını belə ifsdə edib: "Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Allah Ali Baş Komandan başda olmaqla Ordumuzu, xalqımızı qorusun. Çox fərəhli, xoş gündür. Çox həyəcanlıyam. 32 ildən sonra doğma yurdumuzda toy sədaları eşidilir. Bu gün oğlum – 44 günlük Vətən müharibəsinin qazisi Elmirin toyudur. Allah xalqımıza hər zaman belə xoş, sevincli günlər nəsib eləsin".

Bəyin anası Mehriban Məmmədova bildirib: "Çox həyəcanlıyıq. Sevinc və fəxarət hissləri bir-birinə qarışıb. Şuşamızın toylu-büsatlı günləri başlayıb. Allah bir də bizə pis günlər göstərməsin".

Toyu olan Elmir Məmmədov şad gününün Şuşada keçirildiyi üçün özünü xoşbəxt hesab etdiyini bildirib: "Şükür bu günümüzə, Ali Baş Komandanın rəhbərliyi ilə bütün torpaqlarımız azad edildi. Mən də 44 günlük Vətən müharibəsində Füzuli, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etmişəm. Toy mərasimim Şuşada keçirildiyi üçün özümü çox xoşbəxt hesab edirəm".

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 194 (30598) 7 sentyabr 2024-cü il, şənbə

## “Euronews” Formula 1 haqqında



**“Euronews” televiziyası Bakıda keçiriləcək “Formula 1 Qatar Airways Azərbaycan Qran Prisi 2024”ə barədə reportaj yayımlayıb. Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin baş direktoru Maqsud Fərzullayev mötəbər idman yarışına hazırlıqla bağlı televiziyaya müsahibə verib.**



Müsahibədə nüfuzlu yarışın ölkəmizə faydalarından bəhs edilib:

– Formula 1 qlobal miqyasda genişlənən və inkişaf edən bir idman növüdür. Bu yarışa evsahibliyi etmək ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, həm də ona böyük iqtisadi imkanlar qazandırır. Turizmdən əldə edilən gəlirlər, xarici qonaqların şəhərə olan marağı və iqtisadiyyata verdiyi töhfə 2016-cı ildən bəri hər il daha da artmaqdadır.

Reportajda yarış həftəsində paytaxt Bakıda böyük sayda turist axını və azarkeş kütləsinin gözlənildiyi, ötən illə müqayisədə tribunaların tutumunun 35 faiz artdığı vurğulanıb. “Euronews”-da Bakı yarışının təşkilində 1500-ə yaxın əməkdaşın, 2 min könüllü və 1400 -dən çox marşalın cəlb olunması, şəhərdəki otellərin tam tutumlu faktı, Bakı Halqasının ərsəyə gəlməsində istifadə olunan ən son texniki yeniliklərin tətbiqi, yol infrastrukturundakı müsbət dəyişikliklər, təhlükəsizlik və ətraf mühitin qorunması məsələləri də reportajda yer alıb.

## Qadın güləşçimizin U-20 bürüncü




**İspaniyanın Pontevedra şəhərində güləş üzrə U-20 Dünya çempionatında qadın güləşçimiz Nərgiz Səmədova uğurla çıxış edib.**

55 kiloqram çəkidə mübarizə aparan təmsilçimiz bürünc medal uğrunda görüşdə yaponiyalı Karina Honda ilə qarşılaşıb. Rəqib 7:0 hesabı ilə önə çıxsa da, güləşçimiz əsl əzmkarlıq nümayiş etdirib. İlk hissənin sonlarında 4 xallıq fənd işlədən Səmədova fasilədən sonra da eyni fəndi uğurla tətbiq edib və “tuş”la qalib gələrək dünya 3-cüsü olub.

*L.QURBANOVA*
*XQ*

*“STİL – Tikinti” MTK tərəfindən Məmmədov Mənsim Oruc oğlunun adına verilmiş maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.*

## Vüqar Həşimov Memorialı Şuşada keçiriləcək

**Vüqar Həşimov Şahmat Fondu, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyasının təşkilatçılığı ilə növbəti Vüqar Həşimov Memorialı təşkil ediləcək. Sayca 10-cu yarış 25–30 sentyabrda ölkəmizin mədəniyyət paytaxtı Şuşada keçiriləcək.**

Yarışla bağlı mətbuat konfransında turnirin direktoru Anar Allahverdiyev yubiley memorialında iştirakçıların adını açıqlayıb. Rapid və blits üzrə keçiriləcək görkəmli şahmatçı Vüqar Həşimovun xatirə turnirində Azərbaycanı üç şahmatçı təmsil edəcək. Bunlar milli komandanın üzvləri – Şəhriyar Məmmədyarov, Rauf Məmmədov və Aydın Süleymanlı olacaq. Eyni zamanda, turnirdə Nodirbek Abdussatorov (Özbəkistan, FIDE reytinqi 2766), şahmat tacı uğrunda görüşdə iştirak edən Yan Nepomnyaşiy (FIDE, 2755), Riçard Rapport (Macarıstan, 2766), Yan Kşiştof Duda (Polşa, 2732), yarışın son qalibi Vidit Santoş Gujrathi (Hindistan, 2720) kimi tanınmış şahmatçılar mübarizə aparacaq.




Turnirdə 10 şahmatçının iştirakı planlaşdırılır. Son iştirakçıların adı yaxın günlərdə dəqiqləşəcək.

Memorialın açılış mərasimi və ilk turun partiyaları sentyabrın 26-da olacaq. Turnir “Şuşa” otelində təşkil olunacaq.

Memorialın baş hakimi müstəqil Azərbaycanın ilk çempionatının qalibi Rauf Hacılıdır.

*L.QURBANOVA*
*XQ*



## 46 mindən çox uşaq I sinfə gedəcək

**2024-2025-ci tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələri üzrə ümumilikdə, 513 min 698 şagirdin təhsil alacağı gözlənilir.**

Qurumdan mediaya verilən məlumatda, həmçinin qeyd olunub ki, BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin I sinfində 46 min 98 şagirdin təhsil alacağı proqnozlaşdırılır.

BŞTİ-nin tabeliyində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinə 45 min 201 uşağın, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına isə 29 min 216 beşyaşlının cəlb olunacağı gözlənilir.

Yeni tədris ilində idarənin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində 29 min 400 müəllim, məktəbəqədər təhsil müəssisələrində isə 4 830 tərbiyəçi-müəllim çalışacaq.

Qeyd edək ki, BŞTİ-nin tabeliyində 698 təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 342-si məktəbəqədər təhsil müəssisəsi, 327-si ümumi təhsil, 3-ü xüsusi tipli ümumi orta məktəb, 5-i əyani-qiyabi axşam məktəbi, 12-si internat tipli müəssisə, 9-u isə məktəbdənkənar müəssisədir.

*XQ*

## “Li-Fi” “Wi-Fi”dən 100 dəfə sürətlidir

**Yeni və inqilabi bir texnologiya olan “Li-Fi” işıq dalğaları vasitəsilə məlumat ötürərək, “Wi-Fi”dən 100 dəfə daha sürətli internet bağlantısını təmin edəcək.**

Əsası XXI əsrin əvvəllərində alman fiziki Harald Haas və onun komandası tərəfindən qoyulmuş “Li-Fi” texnologiyası üzərində təcrübələrə 2008-ci ildə Fransanın Oldecomm şirkəti başlayıb. Bu texnologiyanın 2024–2029-cu illərdə geniş şəkildə əlçatan olacağı gözlənilir.

Həmçinin bu texnologiyanın bəzi mənfi cəhətləri də var. “Li-Fi” işıq mənbəyindən asılı olduğundan onun əhatə dairəsi məhdud, yəni qapalı ərazilərlə məhdudlaşır. Bundan əlavə, “Li-Fi”ni dəstəkləyən cihazların sayı olduqca azdır, çünki bu texnologiya hələ geniş yayılmayıb. Ümumilkdə, “Li-Fi”nin gələcəyi parlaq görünür və bir çox sənaye sektorları bu texnologiyanın tədqiqinə və inkişafına sərmayə qoyurlar. Lakin onun “Wi-Fi”ni tamamilə əvəz edib-etməyəcəyini söyləmək hələ tezdir.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*



## Su altında “muzeylər”

**Dünyanın gözəl mənzərəli və heyrətamiz yerlərdən biri də yeraltı mağaralardır. Şimali Makedoniyanın Skopye şəhərində olan Vrelo mağarasının da bir hissəsi suyun altında yerləşir. Dərinliyi 230 metr olan bu boşluq Balkanlarda ən dərin, Avropada isə ikinci dərin mağara hesab olunur.**





Mağara iki fərqli sistemdən ibarətdir. Yuxarı hissə Vrelo, sualtında qalan qat isə Podvrelo adlanır. Mağara daxilində çoxlu stalaktit (mağaranın tavanından damcılayan mineral) və stalaqmitlər (mağaranın dibindən yuxarıya qədər sütun əmələ gətirən mineral) mövcuddur. Bunlardan daha çox diqqət çəkəni “əkiz sütunlar”dır. Onların uzunluğu 6 metrə çatır və kristallik rəngdədir.

Mağaraya turistlərin səfəri xüsusi qayıqlarla həyata keçirilir. Səyahət 20 dəqiqə çəkir. Qayıqlar xüsusi platformada dayanır və pilləkənlərlə mağaranın girişinə qalxırlar.

*FİDAN*
*XQ*

## Yupiter peykində həyat axtarışı

**ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsi 2024-cü ilin oktyabrında Yupiterin peyki Avropaya onda həyat üçün şəraitin olub-olmadığını müəyyən etmək üçün kosmik gəmi göndərəcək.**



“Europa Clipper” missiyasının orbitə çıxarılması oktyabrın 10-da ABŞ Kosmik Qüvvələrinin Florida ştatındakı Kanaveral burnunda yerləşən bazasından planlaşdırılır. Buraxılış üçün Amerikanın “SpaceX” şirkətinin “Falcon Heavy” daşıyıcısından istifadə ediləcək.

Sıfır cazibə şəraitində eksperimentlər aparmaq üçün 9 cihaz və avadanlıqla təchiz edilən kosmik gəminin Yupiter orbitinə çıxarılması və Avropaya yaxınlaşması nəzərdə tutulur.

*XQ*

## Gün yağmursuz keçəcək

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 19-22° isti, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-70 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın əksər rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 18-23° isti, gündüz 28-33° isti, dağlarda gecə 9-14° isti, gündüz 15-20° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3823
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00